Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

22-24 FEVRAL 2020-ci il

№ 33 (4164)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYAN MÜNHEN İFLASINDAN SONRA DAHA DA AQRESSIVLƏŞDİ - AZƏRBAYCANA TORPAQ GÜZƏŞTİ OLMAYACAQ

■ səh. 8 ■

Paşinyanın daha bir ziddiyyəti - Xocalını ruslar törədib, Münhendə Mütəllibovun üzərinə atmaq istəmişdi...

■ səh. 9 ■

DTX-nın Neftçalada keçirdiyi məmur həbslərinin detalları açılır - kasıbların ictimai iş kartlarını özündə saxlamaq...

■ səh. 4 ■

Ermənistan ordusunda zabitlərin biznesə qurşanması intiharların müstəsna səbəbi kimi - Paşinyandan cəmiyyəti güldürən açıqlama...

■ səh. 10 ■

Kirov Azərbaycanın çörəyini yedi, ömrü boyu da Qarabağı ermənilərə verməyin yolunda oldu...

■ səh. 7 ■

İdlibdə Rusiya və Türkiyə ordusu bir-birini vurdu, Türkiyə ABŞ-dan iki "Patriot" istədi...

■ səh. 11 ■

Koronavirus sərhədlərimizə çatdı - İranda iki nəfərin ölümündən sonra virusa yoluxanların sayı 18-ə yüksəlib

■ səh. 2 ■



■ səh. 5 ■

## İcra başçıları korpusunda kökündən yenilənmə vaxtı çatıb - rüşvət və seçkiyə müdaxilə faktlarını adi iş normasına çeviriblər



Azərbaycan - İtaliya yaxınlaşması Qarabağ prosesində də nəzərəçarpan yenilik yarada bilər

■ səh. 3 ■

Regionların iqtisadiyyatına məmurların böyük maneçiliyi - örüş torpaqları zəbt edilir

■ səh. 13 ■




Dünya Bankının «ofşor korrupsiyası» hesabatında Ermənistan liderlərdən biri oldu

■ səh. 8 ■

■ səh. 3 ■

Azərbaycan - İtaliya strateji əməkdaşlıq bəyannaməsi iki ölkənin münasibətlərini yeni mərhələyə çıxaracaq



■ səh. 6 ■

İtaliyada "Azərbaycan ili"ndən ölkəmiz nə qazanacaq...



■ səh. 12 ■

Xocalı və Gədəbəy mədəni irs nümunələri dünya muzeylərinə necə düşüb...



■ səh. 13 ■

Prezident Administrasiyasına daxil olan şikayətlər arasında MTK-ların insanlara zülmü əsas yer tutur



■ səh. 15 ■

Azərbaycanın dövlət xəstəxanalarında tibb fakültələri - yeni strukturlar...





# Prezident İlham Əliyev Romada Azərbaycan-İtaliya biznes forumunda iştirak edib

**Fevralın 21-də Romada Azərbaycan-İtaliya biznes forumu keçirilib.**

Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Luici Di Mayo biznes forumda iştirak ediblər.

## Ərdoğan Bakıya gəlir...



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin vaxtı açıqlanıb. Bu barədə "Trend"ə Türkiyə Prezindent Adminstrasiyasından xəbər veriblər.**

Məlumata görə, Ərdoğan fevralın 25-də Azərbaycana birgünlük səfər edəcək.

Səfər zamanı R.T.Ərdoğan Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının iclasında iştirak edəcək.

## Səfər Mehdiyev Litvanın Azərbaycandakı səfiri ilə görüşdü - Azərbaycan və Litva gömrük xidmətləri arasında əlaqələrin perspektivləri müzakirə olundu



**Fevralın 21-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Litvanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikas ilə görüşüb.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, qonağı səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycanla Litva arasında mövcud əməkdaşlıqdan bəhs edib, tərəflər arasında əlaqələrin bütün sahələri əhatə etdiyini vurğulayıb, qarşılıqlı fəaliyyətin bundan sonra da davam edəcəyinə ümidvar olduğunu bildirib.

Komitə sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə, o cümlədən gömrük sistemində həyata keçirilən islahatlar barədə məlumat verib, tətbiq edilən yeniliklərin ölkənin ixrac potensialını inkişaf etdirmək, gömrük prosedurlarını sadələşdirmək, şəffaflığı təmin etməklə yanaşı, beynəlxalq ticarətin asan və sürətlə həyata keçirilməsinə münbit şərait yaratdığını da söyləyib. Qeyd edilib ki, gömrük sahəsində aparılan struktur və kadr islahatlarında məqsəd peşəkar və bilikli kadrları işə cəlb etməklə çevik və dinamik gömrük xidməti formalaşdırmaqdır.

Azərbaycan və Litva gömrük xidmətləri arasında mövcud əməkdaşlıqdan söhbət açan Səfər Mehdiyev iki ölkə arasında ticarət dövriyyəsinin artırılması istiqamətində səylərin daha da gücləndirilməsinin vacibliyinə toxunub, təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Litvanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikas ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlıqda maraqlı olduğunu bildirib.

İki ölkə arasında gömrük sahəsində münasibətlərin inkişaf tempindən danışan səfir bu əlaqələrin perspektivlərinə toxunub. Eqidius Navikas Azərbaycan və Litva gömrük xidmətlərinin qarşılıqlı əməkdaşlığının daha da gücləndirilməsi istiqamətində bundan sonra da səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə qarşılıqlı əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Koronavirus sərhədlərimizə çatdı - İranda iki nəfərin ölümündən sonra virusa yoluxanların sayı 18-ə yüksəlib

**İranda bu günədək daha 13 nəfər yeni koronavirusa (COVİD19) yoluxub. "Trend"in məlumatına görə, bunu İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin mətbuat xidmətinin müdiri Kiyanuş Cahanpur deyib. Onun sözlərinə görə, bu rəqəm aparılan analizlərin nəticəsində əldə olunub.**




Cahanpur əlavə edib ki, virusa yoluxanların əksəriyyəti Qum şəhəri sakinidir və ya son günlərdə bu şəhərə səfər edənlərdir.

Nazirlik rəsmisi qeyd edib ki, 13 nəfərin 7-si Qum şəhəri, 4-ü Tehran, 2-si isə Gilan vilayətindədir.

Cahanpur deyib ki, Ərak şəhərində koronavirus şübhəsi ilə əlaqədar yoxlamadan keçən 8 nəfərin bu virusa yoluxmadığı bəlli olub. Ərak şəhərində virusa yoluxan həkimin vəziyyəti ötən günlə müqayisədə yaxşıdır.

Nazirlik rəsmisi ötən günlər ərzində 735 nəfərdən çox şəxsin yeni koronavirus şübhəsi ilə xəstəxanada yatırıldığını deyib.

Qeyd edək ki, ümumilikdə bu virusa yoluxanların sayı 18-ə çatıb. 19 fevralda İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi 2 nəfərin yeni koronavirusa yoluxması nəticəsində dünyasını dəyişdiyini təsdiqləyib.

Baki-xeber.com xəbər verir ki, rəsmi İRNA xəbər agentliyi iki gün əvvəl virusun İranda ilk dəfə göründüyü müqəddəs Qum şəhərində bütün məktəb və universitetlər, dini şiə seminariyalarının bağlandığını bildirib. Digər xəbərlərdə isə İranın bu yaxınlarda epidemiyanın mərkəzi, Çinin Uhan şəhərindən 60 iranlı tələbəni təxliyə etdiyi bildirilib.

Paytaxt Tehrandan təqribən 140 kilometr cənubda yerləşən Qum İran, İraq, Pakistan və Əfqanıstandan gələn şiə müsəlmanların müqəddəs yeri və dini araşdırmalar mərkəzidir.

İranın səhiyyə nazirinin müavini Məhəmməd Mehdi Guya virusa yoluxanların Çin vətəndaşları ilə hər hansı bir əlaqəsi olmadığını deyib. İran hökuməti xəstəliyin mənşəyini və bunun Pakistan və ya digər ölkələrdən gələn dini zəvvarlarla əlaqəsi olub-olmadığını araşdırır.

# Azərbaycan MDB ölkələrinin turistləri üçün ən təhlükəsiz ölkələrdən biri sayıldı

**Azərbaycan səhayətlərin sığortasını müqayisə edən Insurly saytının metodologiyası üzrə tərtib olunan ölkələrin reytinqdə turistlər üçün ən təhlükəsiz ölkələr arasında 52-ci yerdədir.**

Sığortaçılar Azərbaycanın səhiyyə sistemini 79 bal, havanın çirklənməsini - kafi olaraq qiymətləndiriblər.

Həmçinin qeyd olunub ki, Azərbaycanda sarı qızdırma, malyariya, vəba və Zika virusuna yoluxma təhlükəsi yoxdur, əsas sanitar şərait isə yaxşı kimi müəyyən olunub.

Ekspertlər nəqliyyat şərtlərini - 75 bal, təbii fəlakətlər risqini - 58 bal, təcavüz səviyyəsini - 51 balla qiymətləndiriblər.



Qeyd etmək lazımdır ki, Azərbaycan MDB ölkələri arasında reytinqdə üçüncü nəticə göstərib.

Siyahıda maksimal 100 baldan 93,4 bal toplayan İsveçrə liderlik edir. İkinci tyerdə 92,7 balla Sinqapur, üçüncü yerdə - 91,1 balla Norveç qərarlaşıb. Həmçinin Lüksemburq, Kipr, İslandiya, Danimarka, Portuqaliya, Finlandiya və Yaponiya onluğa daxil olub.

**180 ölkəni qiymətləndirən reytinqdə son üç yeri CAR, Konqo Demokratik Respublikası və Cənubi Sudan tutub.**

## Ukrayna ermənləri məyus etdi - Ali Rada qondarma "soyqırım" layihəsinin müzakirəsindən imtina etdi

Ukrayna Ali Radası qondarma "erməni soyqırımı"na dair qanun layihəsinin müzakirəsindən imtina edib.

Azərbaycanın Ukraynadakı səfirliyindən "Trend"ə verilən məlumata görə, Ali Radanın hakim "Xalqın xidmətçi"sinin deputatı Darya Volodinanın təqdim etdiyi "erməni soyqırımı qurbanlarının anılması" ilə bağlı qanun layihəsi müzakirə edilmədən geri qaytarılıb.

Fevralın 14-də qeydə alının qanun layihəsinin Azərbaycan və Türkiyənin Ukraynadakı səfirliklərinin birgə səyləri nəticəsində Ali Radanın komitə iclasında belə müzakirə olunması təxirə salınıb.

# Azərbaycan - İtaliya yaxınlaşması Qarabağ prosesində də nəzərəçarpan yenilik yarada bilər

**"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı, cənab Prezident dediyi kimi, biz məsələni müzakirə etdik". Bunu geniş tərkibdə görüşdən sonra Prezident İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə mətbuata bəyanatlarla çıxış edən zaman deyib.**



## *Fikrət Sadıqov: "Hesab edirəm ki, İtaliya münaqişənin həllində səylərini artıra bilər"*

Ölkə başçısının sözlərinə görə, bu məsələnin həlli yolları imzalanmış Birgə Bəyannamədə də göstərilir: "Orada göstərilir ki, İtaliya və Azərbaycan bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına hörmətlə yanaşır və bunu dəstəkləyir. Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsiplər əsasında, Helsinki Yekun Aktı, BMT və ATƏT tərəfindən qəbul edilmiş qətnamə və qərarların əsasında həll olunması göstərilir. Hesab edirəm ki, bu, çox ədalətli və beynəlxalq hüquqa əsaslanmış mövqedir və bu mövqeyə görə biz İtaliya tərəfinə minnətdarıq".

Prezident onu da qeyd edib ki, Dağlıq Qarabağ Azərbaycandır və bunu tarix, beynəlxalq hüququn norma və prinsipləri göstərir: "Azərbaycanın ərazi bütövlüyü, o cümlədən, Dağlıq Qarabağ daxil olmaq şərtilə, bütün dünya tərəfindən tanınır və qəbul edilir. Ona görə münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır".

O da məlumdur ki, İtaliya Avropa İttifaqının aparıcı dövlətlərindən biridir. 1992-ci ildə ATƏT-in Minsk Qrupu yaradılanda onun ilk rəhbəri italiyalı diplomat Mario Rafaello idi. M.Rafaello münaqişənin həlli ilə bağlı fəal siyasət yeritdi. Bununla belə, İtaliya həmişə münaqişənin həllində pozitiv mövqe tutub. Bütün bunları nəzərə alsaq, iki ölkənin yaxınlaşması fonunda Qarabağ münaqişəsinin həllində İtaliyanın iştirakında hansı yenilik və fəallaşmalar gözlənir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, İtaliya münaqişənin həllində səylərini artıra bilər. O bunu bir sıra faktorlarla əlaqələndirdi: "Məsələ ondadır ki, İtaliya Avropanın açar dövlətidir. Prezident İlham Əliyevin ölkə rəsmiləri ilə keçirdiyi yüksək səviyyəli görüşlərdən hiss olunurdu ki, İtaliya Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlıdır. İki ölkə arasında enerji sahəsində əməkdaşlıq genişdir. TAP layihəsi hazır olandan sonra Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı İtaliya bazarına çıxarılacaq. Bu özlüyündə müsbət bir amildir. Nəzərə almaq lazımdır ki, iki ölkə arasında 17 sənəd imzalandı. Hesab edirəm ki, bunun özü böyük diplomatik uğurdur. Çünki imzalanan sənədlər çoxşaxəlidir və müxtəlif sahələri əhatə edir. Görün, münasibətlər necə üstün səviyyədədir ki, bu il İtaliyada "Azərbaycan ili" elan edilib.

*"İmzalanan sənədlər, verilən bir sıra bəyanatlar Qarabağ münaqişəsinin həlli baxımından Azərbaycanın maraqlarına cavab verir"*

Bütün bunlar İtaliya tərəfindən çox maraqlı, önəmli və Azərbaycanın xeyrinə olan addımlardır. Eyni zamanda, o da bir reallıqdır ki, Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq saziş baxımından belə bir səfər çox önəmlidir.

**Düşünürəm ki, imzalanan sənədlər, verilən bir sıra bəyanatlar Qarabağ münaqişəsinin həlli baxımından Azərbaycanın maraqlarına cavab verir. Bu baxımdan hesab edirəm ki, İtaliya münaqişənin həllində səylərini artıra bilər".**

*Vidadi ORDAHALLI*

# Azərbaycan - İtaliya strateji əməkdaşlıq bəyannaməsi iki ölkənin münasibətlərini yeni mərhələyə çıxaracaq

**Məlum olduğu kimi, fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Kontenin geniş tərkibdə görüşü başa çatandan sonra Azərbaycan-İtaliya sənədlərinin mübadiləsi mərasimi olub.**




## *Rauf Zeyni: "İmzalanan yeni sənəd bütün sahələr üzrə iki ölkə arasındakı münasibətlərin inkişafına təkan verəcək"*

Azərbaycan Prezidentinin Mətbuat Xidmətindən verilən məlumata görə, Prezident İlham Əliyev və İtaliya Nazirlər Şurasının Sədri Cüzeppe Konte "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni mübadilə ediblər.

Eyni zamanda, bir sıra digər sahələr üzrə də tərəflər arasında mühüm razılaşmalar əldə olunub. Tərəflər arasında imzalanan Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamənin əhəmiyyətini necə dəyərləndirə bilərik?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, görüş zamanı imzalanan Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın inkişafı və gücləndirilməsi üzrə Birgə Bəyannamə qarşıdakı uzun illər ərzində iki ölkə arasında sıx əməkdaşlığı müəyyən edən vacib siyasi sənəddir: "Bu sənəd ölkələr arasında strateji tərəfdaşlığın gələcək istiqamətlərini müəyyən edir, ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir.

Bir sözlə, cənab Prezidentin səfəri və səfər çərçivəsində imzalanan sənədlər Azərbaycanın İtaliya vasitəsilə Avropaya hərtərəfli inteqrasiyasını asanlaşdıracaq. Bu gün İtaliya dünyanın yeddi böyük ölkəsindən biridir və dünya siyasətində, iqtisadiyyatında çəkisi olan ölkədir. İtaliya Azərbaycanın mühüm ticarət ortaqlarından biridir. Hesab edirəm ki, Prezident İlham Əliyevin bu səfəri və səfər zamanı imzalanan strateji əməkdaşlıq bəyannaməsi ölkələrimiz arasında münasibətlərə yeni dinamizm verəcək.

Azərbaycan Respublikasının dünyanın ayrı-ayrı dövlətləri ilə qurduğu ikitərəfli əlaqələr, mehriban dostluq və əməkdaşlıq münasibətləri ildən-ilə genişlənərək məzmunca yeni keyfiyyət mərhələsinə qədəm qoyur. Bu zaman diqqətçəkən əsas reallıq odur ki, Azərbaycanın Cənubi Qafqazın lider dövləti olması bütün dünyada etiraf edilir. Azərbaycanla İtaliya arasındakı yüksək siyasi dialoq həm indi, həm də gələcək illərdə əlaqələrin daha da şaxələnməsinə, beynəlxalq əhəmiyyətli məsələlərdə səmimi tərəfdaşlığa xidmət edəcək.

Azərbaycan və İtaliya arasında siyasi sahədə olduğu kimi, iqtisadi əməkdaşlıq da uğurla davam edir. Hazırda İtaliya ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir. Şübhəsiz ki, ikitərəfli əlaqələrin inkişafında qarşılıqlı rəsmi səfərlərin əhəmiyyəti mühüm önəm daşıyır. Müstəqillik illərində tərəflərin qarşılıqlı olaraq bir-birinə əhəmiyyətli həcmdə investisiya yatırması əlaqələrin etibarlığı və möhkəmliyindən xəbər verir.

İtaliya ilə Azərbaycan arasında iqtisadi əlaqələr əsasən neft-qaz, qeyri-neft sektoru, sənaye sahələrini əhatə edir. İqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün hər iki ölkə böyük potensiala malikdir.

**Enerji, kənd təsərrüfatı, sənaye, ticarət, investisiya, nəqliyyat, ekologiya və s. sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanlar mövcuddur. İmzalanan yeni sənəd bütün sahələr üzrə iki ölkə arasındakı münasibətlərin inkişafına təkan verəcək".**

*Məhəmmədəli QƏRİBLİ*

# DTX-nın Neftçalada keçirdiyi məmur həbslərinin detalları açılır - kasıbların ictimai iş kartlarını özündə saxlamaq...

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) açıqlama yayıb. DTX-nin İctimai Əlaqələr şöbəsindən baki-xeber.com-a verilən məlumata görə, Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən vətəndaşların hüquqlarına, dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, dövlət orqanlarının fəaliyyətinə kölgə salan qanunsuz əməllərə yol verilməsinə dair məlumatlar əsasında kompleks araşdırma tədbirləri həyata keçirilməkdədir:**

"Bu tədbirlərin davamı kimi Neftçala Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı cinayət əməllərinə yol vermələrinə dair məlumatlar əsasında kompleks araşdırma tədbirləri başlanıb.

Toplanmış materiallarla rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyevin mütəmadi olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib təhsil, səhiyyə və digər yerli dövlət təsisatları rəhbərlərindən müxtəlif adlar altında şəxsən pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən olunub.

Həmçinin, İsmayıl Vəliyevin şəxsən, habelə icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, tabeliyində olan digər vəzifəli şəxslər vasitəsilə rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib.

İsmayıl Vəliyevin, Vurğun Əkbərovun, icra başçısının müavini Gültəkin Sadıqovanın, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərovun xidməti otaqlarına məhkəmənin qərarı əsasında keçirilən baxış zamanı müxtəlif yerli icra hakimiyyəti və digər yerli dövlət orqanlarının vəzifəli şəxslərindən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən alınmış vəsaitlərin öz əlyazmaları ilə tərtib olunmuş siyahıları, külli miqdarda pul vəsaitləri, sənədlər və iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər aşkar edilərək götürülüb.

Aparılan araşdırmalarla İsmayıl Vəliyev tərəfindən təmir-tikinti, abadlıq işlərinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin nağdlaşdırılaraq mənimsənildiyi, vəzifə səlahiyyətlərindən sui-istifadə edilməklə rayon ərazisində torpaq sahələrinin özbaşına tutulduğu, qanunsuz olaraq şəxsi məqsədlər üçün istifadə edildiyinə, həmin ərazilərdə qanunsuz tikinti işləri aparıldığına əsaslı şübhələr müəyyən edilib.

İstintaq araşdırmaları ilə, həmçinin, dövlət qayğısı ilə əhatə olunmuş işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün onlara məxsus əməkhaqqı kartlarının İsmayıl Vəliyev tərəfindən müxtəlif adlar altında ələ keçirilməsinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunan vəzifə səlahiyyətlərindən sui-istifadə faktlarının təhsil, səhiyyə və digər yerli dövlət orqan və müəssisələrində davamlı korrupsiya əməllərinin törədilməsinə yol açdığı təsbit edilib.

Cinayət işləri üzrə İsmayıl Vəliyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə faktlarına görə, Vurğun Əkbərov, Anar Cəfərov, Vüqar Nağıyev, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidov, rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov və digərləri rüşvət alma və rüşvət vermə ilə bağlı faktlara görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə şübhəli şəxs qismində saxlanıblar.

Hazırda cinayət işi üzrə bütün hallar tam, hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək istintaqa cəlb olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir".





***REDAKSİYADAN:*** ***Xatırladaq ki, bundan əvvəl Yevlax və Ağstafa icra məmurlarının da həbsində kasıb təbəqə üçün nəzərdə tutulmuş dövlət vəsaitlərinin kartlarla mənimsənilməsi halları olmuşdu.***

*Namiq QULİYEV*

# Bakıda Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin səs-küylü əməliyyatı - Gürcüstanda ağır cinayət törədib Bakıda gizlənirdi, həm də silah gəzdirirdi...

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində bir neçə əməliyyat tədbiri həyata keçirilib.**



Belə ki, Baş İdarəyə Elcan adlı şəxsin evində qanunsuz olaraq odlu silah-sursat gizlətməsi barədə əməliyyat məlumatı daxil olub. Keçirilən təxirəsalınmaz tədbir nəticəsində həmin şəxs, Gürcüstan Respublikasının Cinayət Məcəlləsinin 108-ci (qəsdən adam öldürmə) maddəsi ilə beynəlxalq axtarışda olan həmin ölkənin vətəndaşı Elcan Cəfərov paytaxtın Xətai rayonu ərazisində tutulub. Onun kirayədə yaşadığı mənzilə baxış zamanıoradan 1 ədəd nömrəsi silinmiş "Makarov" markalı tapança, 1ədəd "F-1" qumbarası, 32 ədəd patron, habelə 8,895 qram narkotik vasitə heroin və 4,403 qram psixotrop maddə hesab edilən metamfetamin aşkar olunaraq götürülüb. Araşdırma zamanı E.Cəfərovun cinayətkar mühitə meylli şəxs olduğu və əvvəllər dəfələrlə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məhkum edildiyi məlum olub. E.Cəfərov Gürcüstan Respublikasında ağır cinayət törətdiyi üçün bir müddət imiş ki, Bakı şəhərində gizlənirmiş.

Baş İdarə əməkdaşları tərəfindən keçirilən daha bir uğurlu tədbir zamanı Balakən rayon sakini, əvvəllər məhkum olunmuş Əli Muğumov Abşeron rayonu Mehdiabad qəsəbəsi ərazisində tutulub. Onun qəsəbə ərazisində kirayədə yaşadığı mənzilə baxış zamanı 1 ədəd "Makarov" markalı tapança, həmin silaha məxsus 1 ədəd sandıqça və 16 ədəd patron aşkar edilərək götürülüb.

E.Cəfərov və Ə.Muğumov barəsində Baş İdarənin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb və barələrində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Saxlanılan şəxslərin ətralarının və onların cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir. Bu şəxslərin əməllərindən zərər çəkən başqa vətəndaşlar varsa Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə müraciət edə bilərlər.

# İcra başçıları korpusunda kökündən yenilənmə vaxtı çatıb - rüşvət və seçkiyə müdaxilə faktlarını adi iş normasına çeviriblər

## *İlqar Hüseynli: "Təklif edərdim ki, parlamenti buraxdıqları kimi, cənab Prezident icra başçılarının bütün korpusunu buraxıb, həmin vəzifələrə korrupsiyadan tam uzaq olan şəxsləri təyin etsin"*

**Fevralın 20-si, günün ikinci yarısında məlumat yayıldı ki, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları Neftçala Rayon İcra Hakimiyyətinin inzibati binasında əməliyyat həyata keçirirlər. Sonra xəbər yayıldı ki, aparılan əməliyyat nəticəsində rayonun icra başçısı və bir sıra digər vəzifəli şəxslər həbs ediliblər.**

Hələlik kimlərin konkret olaraq həbs edilməsilə bağlı rəsmi məlumat verilmir, ancaq fevralın 20-də Neftçala İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyevin vəzifəsindən azad edilməsi ilə bağlı Prezident İlham Əliyevin sərəncamı olub.

Bundan əvvəl DTX Neftçala Rayon İcra Hakimiyyətində vəzifəli şəxsləri şübhəli şəxs qismində həbs etməsi barədə məlumat yayıb. DTX-nın açıqlamasından bəlli olur ki, İcra Hakimiyyətinin vəzifəli şəxslərinin səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi ilə bağlı cinayət işi başladılıb. Məlumata görə, vəzifəli şəxslərin hərəkətləri vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurub.

Onların çoxsaylı cinayət əməllərinə yol verdikləri bildirilir. Qurum kompleks əməliyyat-istintaq tədbirlərini həyata keçirdiyini açıqlayıb.

Vəzifəsindən azad edilən və həbs olunduğuna dair məlumatlar gəzən İsmayıl Vəliyev kimdir?

61 yaşlı İsmayıl Vəliyev 2011-ci ildə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı təyin olunub.

O bundan əvvəl 6 il müddətində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı olub.

2005-ci ilin yayında üç ay "Petrogeoaz" MMC-nin baş direktoru vəzifəsində işləyib. Onun karyerasının 10 ili gömrük orqanlarında keçib.

Elə həmin gün yayılan digər rəsmi məlumata görə, Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktorunun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumatlar əsasında Təhsil Nazirliyinin əməkdaşlarının iştirakı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib. Verilən məlumata görə, bu tədbirlərlə Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru Xaləddin Ələkbərovun kollecin direktor müavini İlqar Dursunovun vasitəsilə tələbələrin qış imtahan sessiyasından müvəffəqiyyətlə keçməsi, dərslərdə iştirak etməyənlərin davamiyyətinin nizama salınması, tələbələrin aylıq pul müqabilində dərslərdən buraxılması, digər təhsil müəssisələrindən köçürülməsi və sair hallarla bağlı kütləvi şəkildə rüşvət alması əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.1 və 311.3.2-ci (Rüşvət alma, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmasını təmin etmək məqsədilə Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru Xaləddin Ələkbərovun və direktor müavini İlqar Dursunovun xidməti otaqlarında məhkəmə qərarı ilə axtarış aparılıb, kollecin tələbələrinə məxsus tələbə biletləri və diplomlar, tələbələrdən alınmış müxtəlif məbləğlərdə pul vəsaitlərinə dair qeydlər və iş üzrə digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülüb. İstintaq zamanı toplanmış ilkin sübutlarla Xaləddin Ələkbərovun və İlqar Dursunovun qeyd edilən qanunsuz hərəkətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, onlar şübhəli şəxs qismində tutulub.

Bütün bu faktlar bir daha sübut edir ki, ölkədə aparılan islahatlarla barışmayan bəzi vəzifəli şəxslər öz çirkin əməllərini davam etdirməkdə maraqlıdırlar. Xüsusilə də Prezidentin yerlərə təyin etdiyi köhnə zehniyyətin daşıyıcısı olan bəzi icra başçılarının özlərindən əvvəlki hadisələrdən düzgün nəticə çıxarmadıqları məlum olur. Qeyd edək ki, bir müddət əvvəl Ağstafanın icra başçısı və müavini vəzifə başındaca həbs ediliblər. Biz ölkədə keçirilən növbədənkənar parlament seçkiləri zamanı da bəzi icra başçılarının seçkiyə kobud müdaxilələrinin şahidi olduq. Bütün bu əməllər də özlkəmizdə keçirilən demokratik seçkilərin ümumi ruhuna zidd olaraq, proses barədə mənfi rəyin yaranmasına səbəb olurdu. Rüşvət və seçkiyə müdaxilə kimi neqativ faktları özlərinin iş normasına çevirmiş icra başçıları korpusunu kökündən yeniləmə zərurəti varmı?

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu mövzu dəfələrlə bizim qəzet vasitəsilə müzakirə edilib: "Sizə dərin təşəkkür edirəm ki, belə mövzuları daim diqqətdə saxlayırsınız. Yadınızdadırsa, biz sizinlə hələ icra başçılarının həbsindən əvvəl bu sahə ilə bağlı həyəcan təbili çalmışdıq. Sonra Ağstafanın icra başçısı və Yevlaxın sabiq icra başçısı həbs edildi. İndi də Neftçalaya rəhbərlik edən şəxsin həbs edildiyi söylənir. Baş vermiş hadisə yenidən bu mövzunu gündəmə gətirmiş oldu. Sosial şəbəkələrdəki reaksiyalara fikir verin. Demək olar ki, bütün rayonlardan çağırış edilir ki, DTX onların da rayonuna təşrif buyursun. Bir sözlə, belə mənzərə yaranır ki, uzun illər kresloda oturan icra başçılarının hər biri eyni metodla işləyib, bənzər problemlər yaradıblar. Uzun müddət icra başçısı işləyən hansı birini araşdırsan, onun külli miqdarda var-dövləti, qeyri-leqal biznesi üzə çıxacaq.



**Eyni zamanda, dövlət büdcəsindən, Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlərin amansızcasına talandığının şahidi olacağıq. Monitorinq etsək görəcəyik ki, bir çox adı hallanmayan rayonda da işsizliyə görə verilən sosial kartların böyük əksəriyyəti icra başçılarının qohumlarının cibindədir. Təəssüflər olsun ki, seçki prosesində də biz icra başçılarının seçkiyə kobud müdaxiləsini gördük. Bunların hamısı da özfəaliyyət idi. Nəticədə bütün prosesi gözdən salırdılar. Bütün bu neqativlikləri ayrı-ayrı icra başçıları ilə bağlı görülən sərt tədbirlərlə aradan qaldırmaq mümkün olmayacaq. Mən təklif edərdim ki, parlamenti buraxdıqları kimi, cənab Prezident icra başçılarının bütün korpusunu buraxıb, həmin vəzifələrə korrupsiyadan tam uzaq olan şəxsləri təyin etsin. Onda biz fəqri görəcəyik".**

*Məhəmmədəli*
***QƏRİBLİ***

# İtaliyada "Azərbaycan ili"ndən ölkəmiz nə qazanacaq...

**"2020-ci il İtaliyada "Azərbaycan ili" elan olunub". Bunu İtaliya Respublikasının Prezidenti Sercio Mattarella geniş tərkibdə görüşdən sonra Prezident İlham Əliyevlə mətbuata bəyanatlarla çıxış edərkən deyib.**



İtaliya Prezidentinin sözlərinə görə, ölkəsi Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrə hər zaman dəstək olmağa hazırdır: "Mən artıq cənab Prezidentə bu barədə bildirdim ki, 2020-ci il İtaliyada "Azərbaycan ili" elan olunub. Bu, bizim əlaqələrimizi, dostluğumuzu, əməkdaşlığımızı artırmağa kömək edəcək və iki ölkə arasında münasibətləri daha da intensivləşdirəcək".

S.Mattarella onu da bildirib ki, İtaliya Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələrə stimul olmaq üçün bu sahədə də çox geniş formada əməkdaşlıq etməyə hazırdır: "İtaliya Azərbaycanı, həmçinin, Avroatlantik Tərəfdaşlıq üzrə də ən əsas tərəfdaş kimi görür. Əfqanıstanda terrorizmə qarşı mübarizədə və gördüyünüz kimi, hər bir sahədə bizim ölkələrimiz arasında əməkdaşlıq çox yüksək səviyyədədir. Azərbaycan hər zaman bu əməkdaşlıqda İtaliyanın dostluğuna və dəstəyinə əmin ola bilər".

## *Vaqif Abışov: "Bu, Azərbaycanın İtaliyada təbliğ olunması üçün geniş imkanlar yaradacaq"*

İtaliya böyük iqtisadiyyata və mədəniyyətə malik aparıcı dövlətlərdən biridir. Həmçinin, bu ölkə Azərbaycanla əlaqələrə xüsusi önəm verir. Bu baxımdan İtaliyada "Azərbaycan ili"nin elan olunmasından ölkəmiz nə qazanacaq?

Məsələyə münasibət bildirən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışovun sözlərinə görə, ölkəmizin təbliği baxımından bunun əhəmiyyəti böyükdür: "Hesab edirəm ki, İtaliyada "Azərbaycan ili" elan olunması ölkəmizin daha çox təbliğ olunmasında mühüm önəm daşıyacaq. Çünki Azərbaycan torpaqlarının 20 faizi ermənilər tərəfindən işğal olunub. Ermənilər haqsız olduğu halda, özlərini haqlı çıxarmağa çalışırlar. Azərbaycan da öz haqlarını dünya miqyasında qorumağa çalışır. Orada "Azərbaycan ili" elan edilməsi İtaliyada həm dövlət, həm də xalq səviyyəsində ölkəmizin daha yaxından tanınması üçün əlverişli şərait yaradacaq. Nəzərə almaq lazımdır ki, erməni lobbisi İtaliyada ciddi əlaqələrə malikdir. Hesab edirəm ki, Azərbaycan bu minvalla qarşı tərəfin bizə yönəlik apardığı siyasəti neytrallaşdıracaq. Azərbaycan erməni lobbisinə qarşı ideoloji baxımdan silah əldə edəcək.

### *"Söhbət bir sıra sferalardan gedir"*

Bütün hallarda, bu, Azərbaycanın İtaliyada təbliğ olunması üçün geniş imkanlar yaradacaq. Söhbət bir sıra sferalardan gedir. Ölkəmizin turizmi, mədəniyyəti, mətbəxi və digər sahələr İtaliyada təbliğ olunacaq. İtaliyada Azərbaycanı daha yaxından tanımaqla bağlı yeni imkanlar yaranacaq. O baxımdan bu, ölkəmizə ancaq müsbət fayda gətirəcək. Bu baxımdan hesab edirəm ki, bunun ölkəmiz üçün əhəmiyyəti böyükdür".

***Vidadi ORDAHALLI***

# Erməni KİV-nin Paşinyanın "Münhen biabırçılığını" ört-basdır etmək cəhdləri şantaj həddinə keçdi

**Paşinyanın məlum "Münhen biabırçılığı"ndan sonra dünya mətbuatının dönə-dönə müraciət etdiyi bu mövzuya cavab vermək son günlər Ermənistan kütləvi informasiya vasitələrinin əsas vəzifəsinə çevrilib. Üstəlik, onlar bu "vəzifə"ni elə öz əxlaqlarına uyğun şəkildə, ən müxtəlif ranqlı insanlara çamur atmaqla yerinə yetirirlər.**



Ermənistan KİV-nin bugünkü hədəfi isə amerikan-israil tədqiqatçısı, ABŞ-ın Corctaun Universitetinin professoru Brenda Şafferdir. Xatırladım ki, Münhendə mətbuat konfransı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin sərrast danışığı fonunda Ermənistan baş naziri Nikol Paşinyanın nala-mıxa vurması az qala bütün dünya mətbuatında gündəm mövzusu oldu və ən müxtəlif səviyyələrdə bu mükaliməyə reaksiyalar verildi. Xanım Şaffer isə həmin günlərdə mətbuat vasitəsilə Paşinyana belə bir sual ünvanladı: "Münhen Təhlükəsizlik Konfransında bəyan etdiniz ki, Dağlıq Qarabağ Ermənistandan ayrı, əlahiddə subyektdir. O halda maraqlıdır, sizin oğlunuz niyə hərbi xidmətini Dağlıq Qarabağda keçir?" Təbii ki, Ermənistan mətbuatı, elə Nikol Paşinyanın özü də bu suala konkret cavab verə bilməz, bu, ölkəsinin təcavüzkar olduğunu açıq mətnlə bəyan etmək olardı. Ən azı o səbəbdən ki, dünya Qarabağın Azərbaycanın hüdudları daxilində olduğunu beynəlxalq hüquqa əsasən qəbul edib. Bu üzdən də erməni mətbuatı, konkret olaraq "Ermənistanın səsi" professor Brenda Şafferi "siyasi fahişə" adlandırmaqdan belə çəkinmir, kinayə ilə bildirir ki, guya xanım Şaffer bu sözləri məsələyə obyektiv yanaşması səbəbindən deyil, "Bakının qara kürüsündən daddığı üçün" deyir! Yəqin bunu yazanlar xatırlamır və ya xatırlamaq istəmir ki, cəmi bir neçə il əvvəl AŞPA-nın sessiyasına qatılmış erməni nümayəndə heyəti öz mənafelərini yüksək kürsüdən müdafiə etdirmələri üçün İrəvan konyakı əllərində çıxışı öncəsi AŞPA deputatının ardınca bir Avropa şəhərinin küçələri eyinə-uzununa "ölçmüşdülər". Bu olayı isə mətbuata elə həmin deputat açıqlamışdı, çünki ermənilərin təcavüzkar və o üzdən də haqsız olduqlarını anlamış, prinsipial mövqeyini İrəvan konyakı ilə kirlətmək istəməmişdi. Brenda Şafferə gəlincə, bu xanım heç bir təhqirə yol vermədən, sətiraltı məna güdmədən məntiqi sual verir və ona məntiqi cavab istəyir. Lakin onun qaldırdığı məsələnin bir məntiqli cavabı olmadığından erməni tərəfi məlum həyasız ritorikasını işə salaraq qabaqdangəlmişlik etməyə çalışır. Yəni tam onlara yaraşan bir şəkildə Corctaun Universitetinin professoruna çamur atır, onu rüşvət almaqda və yalan danışmaqda suçlayır.

Nahaq deməyiblər axı, hər kəs özünün əxlaqına görə qiymətləndirir...

***Samirə SƏFƏROVA***

# Prezident olanda Sarkisyanın vəzifəyə təyin etdiyi hakim indi onun özünü mühakimə edəcək



**Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın işini aparmalı olan hakim Vahe Misakyan işi aparmaqdan imtina edə bilər. Sputnik Ermənistan xəbər verir ki, bu barədə "Johovurd" nəşri öz mənbələrinə istinadən yazır.**

Qeyd edək ki, Misakyan 2017-ci ilin noyabrında Serj Sarkisyanın sərəncamı ilə hakim təyin olunub. O eyni zamanda qeyd edib ki, ona heç kim təzyiq göstərmir.

"Məni qorxutmayıblar və qorxutmurlar, mən özüm də qorxan adam deyiləm", - deyə hakim qəzetin əməkdaşı ilə söhbət zamanı bildirib.

Qeyd edək ki, "dizel işi" üzrə məhkəmə fevralın 25-i keçiriləcək.

Xatırladaq ki, Ermənistanın sabiq prezidenti 2013-cü ildə "Fleş" şirkətinə himayədarlıq etməkdə ittiham olunur. Belə ki, şirkət, daha artıq qiymət təklif (bir milyon dollar fərqlə) edilməsinə baxmayaraq, dövlət tərəfindən keçirilən tenderdə qalib gəlib. Nəticədə Ermənistan hökumətinə milyonlarla dollar zərər dəyib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Kirov Azərbaycanın çörəyini yedi, ömrü boyu da Qarabağı ermənilərə verməyin yolunda oldu...

**Azərbaycanın bolşevik işğalına məruz qalması nəticəsində xalqımız çox böyük faciələr yaşadı, ərazi itkiləri ilə üzləşdi. Tədqiqatçılar qeyd edirlər ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarları Soveti yaradıldıqda yerlərə fövqəladə komissarlar da təyin olundu.**

Bu əsasla A.N.Karakozov (1890-1938) Dağlıq Qarabağ üzrə fövqəladə komissar təyin olundu. Azərbaycan Sovet hökuməti 1920-ci il 30 apreldə Ermənistan Respublikasına nota verdi və tələb etdi ki, Zəngəzurdan və Qarabağdan öz qoşunlarını çıxarsın. May ayında Qarabağda Sovet hakimiyyətinin qurulması elan olundu. Bu dövrdə Sovet Rusiyası Qafqazın sovetləşdirilməsi planını həyata keçirməkdə davam edir, yeni sovet dövlətlərinin sərhədlərinin müəyyənləşdirilməsi prinsiplərini irəli sürməklə mövcud və gələcək dövlətlərin fəaliyyətini nəzarət altına almağa cəhd göstərirdi. Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosu Qafqaz cəbhəsi Hərbi-inqilabi şurasına 7 iyul tarixli təlimatında bu məsələyə toxunmuşdu.

Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə (1920, 29 noyabr) xarici sərhədlərlə yanaşı, sərhədlər daxilində də bölgülərin aparılması kəskinləşdi.

Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına 30 noyabr teleqramı və 1 dekabr Bəyannaməsində də Qarabağ və onun dağlıq hissəsindən bəhs olunurdu. Bu sənədlərin erməni tarixşünaslığında təhrif edilməsi əsas şəkildə sübut edilib. Bəyannamədə Dağlıq Qarabağın əməkçi kəndlilərinə tam öz müqəddəratını təyinetmə hüququ verildiyi elan edilirdi. Ermənistan İnqilab Komitəsi isə 28 dekabr Bəyannaməsində Naxçıvana iddiadan əl çəkdiyini bildirirdi. Lakin Ermənistan Qarabağı "əldən vermək" istəmirdi. Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsində Dağlıq Qarabağ məsələsi yenidən gündəmə gəldi. Tariximizdə qara ləkə kimi qalan bu dövrdə ölkəmizə rəhbərlik edən qeyri-azərbaycanlılar Azərbaycan Respublikasının ərazisinin parçalanmasına ciddi-cəhdlə çalışıblar. Xüsusən də torpaqlarımızın ermənilərə verilməsi üçün dəridən-qabıqdan çıxıblar. Dağlıq Qarabağın ermənilərə verilməsi üçün ölkəmizə rəhbərlik edən erməni Levon Mirzoyan və Ruben Rubenov olmaqla 5 nəfər qeyri-azərbaycanlının hamısı bu mövqeyi tutub.

1921-ci ildən 1926-cı ilə qədər Azərbaycanın birinci katibi olan Sergey Kirov bu məsələdə xüsusi canfəşanlıq edib. Kirova qədər də Dağlıq Qarabağın ermənilərə verilməsində maraqlı olan qüvvələr vardı. Kirovun Azərbaycanda hakimiyyət başına gəlməsi bu mənfur prosesin sürətlənməsinə səbəb oldu. Kirov da, ondan sonrakı rəhbərlər də Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi və ayrılmaz hissəsi olduğunu bilsələr də, bütün güclərini birləşdirib Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəyirdilər.

Tarixçilər qeyd edirlər ki, məhz Kirovun rəhbərliyilə Dağlıq Qarabağın muxtariyyəti məsələsinə yeni münasibətin yarandığı ortaya çıxır. Bu təsadüfi deyildi. Kirov nəinki öz şəxsi mövqeyinin, hətta Qafqaz Bürosunun Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını təsdiq etmək əvəzinə, ona məcburi muxtariyyət verilməsi haqqındakı qərarının və onun qısa müddətdə həyata keçirilməsi zərurətinin yanlış olduğunu yəqin etmişdi. Dağlıq Qarabağa muxtariyyət verilməsi dekretləşdiriləndən 4 ay keçdikdən sonra belə, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin 8 oktyabr 1923-cü ildə Kirovun sədrliyilə keçirilən iclasında Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında qərarın əhali, xüsusilə türklər (azərbaycanlılar) arasında təbliğ olunmasının başa çatdırılmadığı etiraf olunurdu.

Kirov və onun dəstəsi bu məsələdə Azərbaycan türklərinin mövqeyinə elə də əhəmiyyət vermək istəmirdi, onun üçün əsas olaraq ermənilərin mövqeyi götürülürdü.

Tarixçilər vurğulayırlar ki, 1921-ci il iyul ayının 4-də İ.Stalinin iştirakı ilə keçirilən Qafqaz Bürosunun plenumundan düz 20 gün sonra Azərbaycan partiya təşkilatına rəhbər təyin edilən Sergey Kirov və respublikaya bilavasitə nəzarət edən Q.Orconikidzenin lehinə səs verməsi ilə belə bir qərar qəbul edildi: "Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, rəy sorğusu yalnız Dağlıq Qarabağda keçirilsin". Plenumun işində RKP MK-nın üzvü Stalin, Qafqaz Bürosunun üzvləri Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Kirov, Nazaretyan, Oraxelaşvili, Fiqatner iştirak edirdilər. İclasda gündəliyə daxil edilən məsələlər 4 istiqamətdə qoyulmuşdu: a) Qarabağı Azərbaycanın hüdudlarında saxlamaq (lehinə Nərimanov, Maxaradze, Nazaretyan; əleyhinə Orconikidze, Myasnikov, Kirov və Fiqatner); b) erməni və müsəlman əhalisinin iştirakı ilə bütün Qarabağda rəy sorğusu keçirmək (lehinə Nərimanov, Maxaradze); v) Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək (lehinə Orconikidze, Myasnikov, Fiqatner, Kirov); q) yalnız Dağlıq Qarabağda, yəni ermənilər arasında rəy sorğusu keçirmək (lehinə Orconikidze, Myasnikov, Fiqatner, Kirov, Nazaretyan). Protokolda belə bir qeyd var ki, Qarabağ məsələsi üzrə səsvermədə Oraxelaşvili iştirak etməyib. Məhz bu təkliflər səsə qoyulanda bundan az sonra Azərbaycan partiya təşkilatına rəhbərlik edəcək S.Kirov və dəfələrlə Leninə və Çiçerinə teleqramlarında Qarabağın dağı və aranı ilə birlikdə Azərbaycana məxsus olduğunu təkidlə yazan Q.Orconikidze sonuncu iki məsələnin, yəni Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsinin lehinə səs verdilər. Bu da, öz növbəsində, Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş qərarın qəbul olunmasına səbəb oldu. Burada maraqlı bir sual meydana çıxır: bir neçə ay əvvəl Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanmasında təkid edən, "Azərbaycanı Qarabağsız təsəvvür etməyən" Orconikidze və Kirovun 1921-ci ilin iyun və iyul aylarından başlayaraq Qarabağa münasibətdəki fikirlərində belə sərt dönüş nə ilə bağlı idi? Tarixçilər vurğulayırlar ki, Cənubi Qafqazda Moskvanın etibarlı nümayəndələri olaraq onların ikisinin də Qafqaz Bürosunun 4 iyul iclasında Azərbaycanın əleyhinə eyni mövqedən çıxış etməsi ancaq Mərkəzdən verilən gizli göstərişlə bağlı ola bilərdi.

AMEA-nın Tarix İnstitutundan məsələ ilə bağlı bildirilənə görə, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu və Təşkilat Bürosunun 26 sentyabrda bilavasitə Kirovun sədrliyilə keçirilən iclasında onun mövqeyinin əksinə dəyişdiyini görürük. İclasda iştirak edən 9 nəfərdən (Kirov, Nərimanov, Axundov, Qarayev, Əfəndiyev, Stukalov, Mirzoyan, Bünyadzadə, Hüseynov) 7-si Qafqaz Bürosundan Dağlıq Qarabağın ayrılması haqqında qərarın yenidən nəzərdən keçirilməsini xahiş etməyi qərara alır, yalnız 2 nəfər - Nərimanov və Bünyadzadə Qafqaz Bürosunun qərarının qısa müddətdə yerinə yetirilməsinə tərəfdar çıxır. Bu məsələ üzrə materiallar toplamaq üçün komissiya yaradılır. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Təşkilat Bürosu üzvlərinin iştirakı ilə Qarabağın məsul işçilərinin 21 oktyabr konfransına rəhbərlik edən Bünyadzadə də Kirovun mövqeyinə keçir. Belə ki, həmin iclasda Dağlıq Qarabağın muxtar vilayət kimi ayrılması xüsusi qeyddə məqsədəuyğun hesab olunmurdu.



Dağılq Qarabağın muxtariyyətləşdirilməsi Zaqafqaziya Federasiyası və SSRİ-nin yaradılması prosesləri ilə paralel gedirdi. Buna baxmayaraq, onun həyata keçirilməsindəki problemlərə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının irəli sürdüyü şəkildə yenidən baxılmadı. Əksinə, 1922-ci ilin fevralında Zaqafqaziya kommunist təşkilatlarının I qurultayında Orconikidzenin sədr seçildiyi Rusiya Kommunist (bolşeviklər) Partiyası Zaqafqaziya Ölkə Komitəsi, 5 iyul qərarının qəbul edilməsində olduğu kimi, onun reallaşdrılmasında da inzibati-amirlik üsullarına əl atdı. Zaqafqaziya Ölkə Komitəsinin 27 oktyabr 1922-ci il tarixli iclasında Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə 5 iyul qərarının həyata keçirilməsi təklif edildi, Karakozovun İcraiyyə Komitəsinin sədri təyin edilməsi, Şadunsun məsul işə göndərilməsi üçün Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə ezam edilməsi qərara alındı. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 15 dekabr iclası Zaqafqaziya Ölkə Komitəsinin qərarını icra üçün qəbul etdi, Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya (Kirov, Mirzəbekyan, Karakozov) və 7 nəfərdən ibarət Komitə (1922, 15 dekabr - 1923, 24 iyul) təşkil edildi. Bütün bunlara baxmayaraq, Azərbaycana təzyiq yenə davam etdirildi. Dekabrın 22-də Zaqfederasiyanın İttifaq Soveti Dağlıq Qarabağa muxtariyyət verilməsinin sürətləndirilməsi haqqında xüsusi qərar qəbul etdi.

SSRİ-nin yaradılmasından sonra Zaqafqaziya Ölkə Komitəsinin tələbləri daha sərt şəkil aldı. 1923-cü ilin mayında Qarabağ Komitəsinin məruzəsi Zaqafqaziya Ölkə Komitəsi plenumunun gündəliyinə daxil edildi. İyunun 1-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyəti muxtariyyətin dekretləşdirilməsi və onun layihəsinin üç gün ərzində Mərkəzi Komitəyə təqdim olunması barədə qərar qəbul etdi. Bu qərar Zaqafqaziya Ölkə Komitəsini təmin etdi. Zaqafqaziya Ölkə Komitəsinin plenumu iyunun 27-də Şaduns və Karakozovun məruzəsi əsasında Dağlıq Qarabağa bir ay müddətində muxtar vilayət statusu verilməsinin təmin olunmasını Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə həvalə etdi. İyulun 1-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin iclası Kirovun sədrliyilə Qarabağ haqqında məsələni dinləyərək 6 bənddən (a-e) ibarət qərar qəbul etdi. Rəyasət Heyətinin adından Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə Dağlıq Qarabağa muxtariyyət vermək, mərkəz Xankəndi olmaqla "Muxtar Qarabağ vilayəti" yaratmaq təklif olundu. Sərhədlərlə bağlı məsələləri müəyyən etmək üçün komissiya (Qarayev - sədr, üzvlər: Karakozov, Sviridov, İldırım və Bünyadzadə) yaradıldı və s.

1923-cü il iyulun 4-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi də eyni məzmunlu qərar qəbul etdi. Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi iyulun 7-də M.B.Qasımov (1879-1949) və Ə. M.Xanbudaqovun (1893-1937) imzası ilə "Dağılq Qarabağ Muxtar Vilayəti yaradılması haqqında" dekret verildi. Dekret preambula, dörd bənd və müştərək komissiya yaradılması haqqında yekundan ibarətdir. Göründüyü kimi, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin qərarı ilə dekretin adı arasında fərq vardır, çünki Qarabağın aran və dağlıq hissəsini muxtar vilayət kimi bir yerdə ayırmaq əvəzinə, yalnız Dağlıq Qarabağı ayırmaq qərara alınmışdı. Dekretin "Muxtar Qarabağ" vilayəti deyil Muxtar Dağlıq Qarabağ Vilayəti adlandırılması diqqəti cəlb edir. Lakin sonralar o, Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılır. Dekret ciddi hüquqi sənəddən daha çox, primitiv məzmunu ilə fərqlənir. Preambulada tarixi xronologiya pozulur, faktlar təhrif olunur, Dağlıq Qarabağa muxtariyyət verilməsi zərurəti kifayət qədər əsaslandırılmır.

Tarix İnstitutundan bildirilir ki, dekretin birinci bəndində hüquqi-siyasi təhrifə yol verilir. Azərbaycan torpaqlarında Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması və onun Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasının təsdiqi əvəzinə, müxtəlif cür təfsir olunan ifadələr işlədilirdi. Üçüncü bənddə isə Sovetlər qurultayı çağırılanadək Müvəqqəti İnqilab Komitəsi yaradılır. Bu da, heç şübhəsiz, vilayətin erməni rəhbərliyinə daha geniş hüquqlar verirdi və s. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin 16 iyul (dekretdən 10 gün sonra!) tarixli iclasının qərarı ilə Şuşa şəhəri Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edildi. Dağlıq Qarabağ Muxtar Vilayəti üçün quberniya icraiyyə komitələri haqqında 1923-cü il əsasnaməsi qəbul və tətbiq edildi. Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə isə 26 noyabr 1924-cü ildə çap olundu. Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə aran və dağlıq hissələrinə parçalanmış və Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edilmişdi. Özü də bu addım həmin hissədə - Dağlıq Qarabağda yaşayan azərbaycanlıların rəyi nəzərə alınmadan, onların hüquqları kobudcasına tapdalanaraq və müvafiq rəy sorğusu keçirilmədən atılmışdı. Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi məsələsində Ermənistanın mövqeyi də maraq doğurur. Ermənistan ilk dövrdə məsələnin bu şəkildə həlli ilə razılaşmaq istəməmiş, 1921-ci il iyulun 16-da Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun 5 iyul tarixli qərarının onu təmin etmədiyini bildirmiş və Dağlıq Qarabağa iddiasını davam etdirməyə başlamışdı. İş o yerə çatmışdı ki, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi XII qurultayında (1923, 17-25 aprel) K.Radek Azərbaycanda erməni şovinizmindən (aprelin 23-də) bəhs etmişdi. XII qurultayda seçilmiş Mərkəzi Komitə üzvlərinin repressiyası da məlum faktdır. Ona görə də K.Radekin çıxışı ilə əlaqədar məsələlər də yenidən tədqiq olunmalıdır. Stalinin, eləcə də Kirovun timsalında güclü müdafiəyə malik olan ermənilər çox çəkmədən əsl niyyətlərini açıqladılar...

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan Münhen iflasından sonra daha da aqressivləşdi - Azərbaycana torpaq güzəşti olmayacaq

**Ermənistanın Baş naziri Nikol Paşinyan Qarabağa dair növbəti avantürist bəyanatla çıxış edərək faktiki olaraq danışıqlar prosesini pozub. Erməni KİV-inin verdiyi məlumata görə, Paşinyan Ermənistanın İctimai Televiziyasına müsahibəsində işğal edilmiş ərazilərin Azərbaycana qaytarılmasını istisna edib.**



## *Akif Nağı: "Razılaşmadığı təqdirdə biz müharibə variantını gündəmə gətirməliyik"*

Paşinyan birmənalı şəkildə deyib ki, işğal edilmiş ərazilərin qaytarılması barədə Azərbaycanla danışıqlar aparmaqdan imtina edir və "Bu haqda söhbət belə gedə bilməz", - deyə o bildirib. Onun sözlərinə görə, Azərbaycanla ancaq Dağlıq Qarabağdakı rejimin "təhlükəsizliyi məsələsi" üzrə danışıqlar apara bilər. "Ərazilər məsələsi yoxdur, təhlükəsizlik məsələsi var", - o əlavə edib. Paşinyan artıq neçənci dəfədir müxtəlif formalarda avantürist bəyanatlar verərək danışıqlar prosesini pozur, faktiki olaraq, danışıqların davamını istisna edir. Hansı ki, Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonların qaytarılması danışıqlar prosesinin bütün dövrlərində və mərhələlərində müzakirə edilib. Bu məsələ hətta Ermənistan üçün ən sərfəli nizamlanma variantlarında belə başlıca element kimi əksini tapıb. O cümlədən, "Madrid prinsipləri" ətraf rayonların qaytarılmasına və Dağlıq Qarabağın yekun statusunun referendumla müəyyən edilməsinə əsaslanır.

Görünən budur ki, Paşinyan Dağlıq Qarabağ münaqişəsinin "mərhələli həll" planını qəbul etməyəcək. O, Dağlıq Qarabağ ətrafındakı ərazilərdən danışarkən "Qarabağ klanı"nın yanaşmasını təkrarlayır: "Dağlıq Qarabağ ətrafındakı rayonların nəzarət altında saxlanması bölgədə yaşayan ermənilərin təhlükəsizliyi baxımından vacibdir. Təhlükə Dağlıq Qarabağdan uzaq olmalıdır". Başqa sözlə, Paşinyan demək istəyir ki, rəsmi Bakı onları "qane edən" təkliflər hazırlamayınca, Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayacaqlar. "Qane edən" təkliflər dedikdə isə, böyük ehtimalla, Dağlıq Qarabağın statusunun bəri başdan müəyyənləşdirilməsini və bölgədə separatçılarla Azərbaycan Ordusu arasında sülhməramlı qüvvələrin yerləşdirilməsini nəzərdə tutur.

Paşinyanın son avantürist bəyanatı ilə bağlı fikirlərini "Bakı-Xəbər"ə şərh edən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağının sözlərinə görə, bütün bunlar Ermənistandakı vəziyyətin gərginliyindən xəbər verir: "Həm inqilabdan əvvəl verdiyi sözləri həyata keçirə bilmir, həm də Dağlıq Qarabağ problemində heç bir irəliləyişə imza atmır. Bütün bu amillər Paşinyanla bağlı bir yalançı, yalnız populist çıxışları etməyi bacaran, əslində isə əlindən heç bir iş gəlməyən siyasətçi obrazını formalaşdırıb. Bütün bu daxili basqılar onu özündən çıxarır. Digər tərəfdən isə artıq müəyyən beynəlxalq qüvvələr də məsələyə, az da olsa, obyektiv yanaşmağa başlayıblar. ATƏT-in Minsk Qrupu həmsədrləri də bəyan edirlər ki, münaqişənin həlli Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür. Azərbaycanın da bununla bağlı mövqeyi konkretdir və bəllidir. Başqa cür də ola bilməz. Paşinyanın çıxışlarında heç bir ardıcıllıq yoxdur. Diletantlığını onunla təsdiqləyir ki, hər auditoriya üçün fərqli mövqe sərgiləyir. Mən erməni KİV-ini də yaxından izləyirəm. Onlar məhz sabit olmayan mövqeyinə görə Paşinyanı yaylım atəşinə tuturlar. Artıq Ermənistan mediası da yazır ki, Paşinyanın siyasəti tam iflasa uğrayıb. Bütün biabırçılıqdan və reytinqinin sürətlə aşağı düşməsindən yaxa qurtarmaq üçün Paşinyan ictimai rəyi kökləməyə çalışır və nəticədə onun belə açıqlamaları meydana gəlir. Münhen konfransının gedişində də nəsə deyə bilmədi. Orada da təhlükəsizlik məsələsini qabartdı. Bu da uğursuz yanaşmadır. Çünki biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə tam təminat veririk. Təhlükəsizliyi təmin edirikə, onda Paşinyanın bu bəhanəsi də öz qüvvəsini itirmiş olur. Ortada olan mənzərə budur ki, artıq Paşinyan Azərbaycanla danışıqları aparmaq iqtidarında deyil. Azərbaycan öz təzyiqlərini bir qədər də artırmalıdır. Bundan sonra Paşinyan bizimlə razılaşmağa məcbur olacaq. Razılaşmadığı təqdirdə biz müharibə variantını gündəmə gətirməliyik. Buna biz tam hazırıq".

***Məhəmmədəli QƏRİBLİ***

# Dünya Bankının "ofşor korrupsiyası" hesabatında Ermənistan liderlərdən biri oldu

**Dünya Bankı öz saytında "Xarici yardımların elitalar tərəfindən mənimsənilməsi. Ofşor hesablarla şahidlik" tədqiqatını yayımlayıb. Sözügedən tədqiqatda 22 ölkənin adı yer alıb. Buraya xüsusilə güzəştli kreditlər və qrantlardan asılı olan ölkələrin adları daxil edilib.**




## *Əli Orucov: "Belə bir halın üzə çıxması Ermənistan iqtidarının nə qədər korrupsiyaya və rüşvətə bulaşdığını bir daha ortaya qoydu"*

Hansı ki, alınan yardım və qrantların hamısı təyinatı üzrə xərclənmir. Tədqiqata əsasən, bu ölkələr ümumdaxili məhsullarının 1faizi həcmində yardım alırlar və bundan sonra bu pulların orta hesabla 7,5 faizi ofşorlara axmağa başlayır.

Müstəqil Dövlətlər Birliyi zonasından siyahıya iki ölkənin adı daxil edilib. Ermənistan və Qırğızıstan bu siyahıda yer alıb. Xarici yardımlar ən çox Ermənistanda mənimsənilir. Ondan sonra Qırğızıstan gəlir. Ümumilikdə, siyahıya Əfqanıstan, Burkina-Faso, Qana, Qvineya-Bisau, Zambiya, Mavritaniya, Madaqaskar, Mozambik, Malavi, Mali, Niger, Ruanda, San-Toma və Prinsipi, Syerra-Leone, Tanzaniya, Uqanda, Eritreya, Efiopiyanın adları daxil olub.

Belədə Ermənistan Baş naziri Nikol Paşinyan ölkədə korrupsiyaya qarşı aparılan mübarizədən danışır. İddia edir ki, guya o, hakimiyyətə gələndən sonra bu sahədə ciddi nailiyyətlər əldə edilib, kölgə iqtisadiyyatı azalıb, vergiyə cəlb edilən vəsaitlər artıb və s. Belədirsə, o zaman Ermənistanın adı niyə "ofşor korrupsiya" hesabatında ön mövqedədir?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Dünya Bankının araşdırması göstərdi ki, Ermənistanda korrupsiya ilə bağlı ciddi problemlər qalmaqdadır: "Belə bir halın üzə çıxması Ermənistan iqtidarının nə qədər korrupsiyaya və rüşvətə bulaşdığını bir daha ortaya qoydu. Beynəlxalq erməni diasporunun və digər təşkilatların verdiyi ianələr mənimsənilir. Xarici yardımlardan asılı olan Ermənistanın dilənçi günündə olmasına baxmayaraq, Paşinyan və ətrafı zəngin, dəbdəbəli həyat tərzi sürür. Yaranan vəziyyətdən istifadə edib özlərinə sərvət toplamaqla məşğuldurlar. Ermənistan hakimiyyətinin acgözlüyü və bitib-tükənməyən tamahkarlığı o həddə çatıb ki, Dünya Bankının verdiyi qrant və güzəştli kreditləri də mənimsəyirlər. Öz xalqı isə ac-yalavac, başqalarının əlinə baxmaqdadır. Bir balaca imkan tapanlar isə başını götürüb ölkədən qaçırlar. Paşinyan özünüreklamla məşğul olmaqla zəngin həyatını və korrupsiyaya bulaşmasını xalqdan gizlətməyə çalışır. Lakin, göründüyü kimi, onun qanunsuz əməlləri beynəlxalq qurumların hesabatlarında da öz əksini tapır. Ermənilər Paşinyanın simasında erməni hakim dairələrinin öz xalqını necə çapıb-talamasını açıq görürlər. Hətta xarici yardımların ofşor hesablarına göndərilməsi onu deməyə əsas verir ki, Paşinyan nəinki yalançı "demokrat"dır, həm də oğru, fırıldaqçı və əsl quldurdur".

> *"Bu onu deməyə əsas verir ki, Paşinyan nəinki yalançı "demokrat"dır, həm də oğru, fırıldaqçı və əsl quldurdur"*

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Paşinyanın daha bir ziddiyyəti - Xocalını ruslar törədib, Münhendə Mütəllibovun üzərinə atmaq istəmişdi...

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinin indiyə qədər mümkün olmaması işğalçı Ermənistanın konfliktlə bağlı qeyri-konstruktiv mövqe sərgiləməsindən birbaşa qaynaqlanır. Belə görünür ki, Ermənistanda müxtəlif vaxtlarda baş verən hakimiyyət dəyişikliklərinə rəğmən, bu ölkədə qeyri-konstruktiv mövqedən geri çəkilmək istiqamətində də hansısa əməli addım atılmayıb.**

Başqabir maraqlı məqam isə bundan ibarətdir ki, Ermənistan rəhbərləri arasında baş nazir Nikol Paşinyan qədər avantürist şəxs olmayıb. Çünki bu şəxsin dedikləri daim bir-birilə ziddiyyət təşkil edir və münaqişənin dinc yolla həllinə ciddi əngəl yaradır. Yeri gəlmişkən qeyd edək ki, bu məsələyə Prezident İlham Əliyev italiyalı həmkarı Sercio Mattarella ilə mətbuata bəyanatlarla çıxış edərkən də toxunub:"Ermənistan tərəfindən çox məyusedici və bir-birini inkar edən ziddiyyətli bəyanatlar səslənir. Ermənistan rəhbəri bir dəfə demişdi ki, Dağlıq Qarabağ Ermənistandır. Ondan sonra demişdir ki, Dağlıq Qarabağ müstəqil dövlətdir. Hər ikisi həqiqəti əks etdirmir. Dağlıq Qarabağ Azərbaycandır. Bunu tarix, beynəlxalq hüququn norma və prinsipləri göstərir. Azərbaycanın ərazi bütövlüyü, o cümlədən Dağlıq Qarabağ daxil olmaq şərtilə bütün dünya tərəfindən tanınır və qəbul edilir. Ona görə münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır". Amma erməni tərəfi hələ də bu reallığı qəbul etməkdə çətinlik çəkir. Məhz belə bir vaxtda Nikol Paşinyan Qarabağa dair növbəti avantürist bəyanatla çıxış edərək, faktiki olaraq danışıqlar prosesini pozub. Belə ki, o, Ermənistanın İctimai televiziyasına müsahibəsində işğal edilmiş ərazilərin Azərbaycana qaytarılmasını istisna edib. Paşinyan birmənalı şəkildə deyib ki, işğal edilmiş ərazilərin qaytarılması barədə Azərbaycanla danışıqlar aparmaqdan imtina edir. Beləliklə, Paşinyan növbəti dəfə danışıqlar prosesini pozur, faktiki olaraq danışıqların davamını istisna edir. Özü də bunları Münhen görüşündən sonra edir və faktiki olaraq savaşdan başqa çıxış yolu qoymur. Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan isə bu durumda ölkəsini böyük fəlakətin gözlədiyini vurğulayır. Baqratyan Bakının siyasi arenada əldə etdiyi uğurları və hərbi gücünü nəzərə alaraq, yaxın vaxtlarda genişmiqyaslı hücumlara başlayacağını dilə gətirib: "Azərbaycan hücuma keçib Qarabağı qaytaracaq. Bu faktdır. Amma bizim üçün daha pis ssenari bundan sonra başlayacaq. Qarabağı qaytarandan sonra Azərbaycan Ermənistanın da bir hissəsini ələ keçirə bilər". Keçmiş baş nazir qeyd edib. ki, Azərbaycan ordusunun zərbə gücü Ermənistan ordusundan ən azı 2-3 dəfə çoxdur.

Rusiyanın tanınmış tarixçilərindən biri, hərbi-siyasi analitik Oleq Kuznetsov da Paşinyanın avantürist mövqeyinin savaşı tətiklədiyini düşünür. O qeyd edir ki, Paşinyanın hərəkətləri onun güvənilə biləcək bir şəxs olmadığını açıq şəkildə meydana qoyur. Ekspert vurğulayır ki, elə Münhen debatında da Paşinyanın Xocalı soyqırımı ilə bağlı dedikləri onun nə dərəcədə avantüraya meylli biri olduğunu göstərir. Məsələ burasındadır ki, Paşinyan Münhendə debat zamanı Xocalı məsələsinə dair Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibovun dediyi fikirləri səsləndirib və bu faciəni guya azərbaycanlıların özünün törətdiyini iddia etmişdi. Amma Münhendən qayıtdıqdan sonra Xocalı soyqırımını rusların həyata keçirdiyini bəyan etməyə başlayıb. Münhen Təhlükəsizlik Konfransından qayıtdıqdan sonra Paşinyan Xocalı soyqırımı məsuliyyətilə sələflərinin və ümumiyyətlə ermənilərin üzərindən atmaq üçün bir status paylaşıb. Status belədir: "Fakt fakt olaraq qalır: Xocalıda azərbaycanlıların qırğınının Azərbaycandakı ermənilərlə ortaq heç nəyi yoxdur, bunu Rusiyanın 366-cı alayı edib. Bu faciədə bizim günahımız yoxdur". Bundan təxminən bir neçə dəqiqə sonra isə Paşinyan ciddi siyasi səhvə yol verdiyini anlayıb və paylaşımını silib. Əvəzində isə bu sözləri saxlayıb: "Fakt fakt olaraq qalır".

Qeyd edək ki, sözügedən statuslar skrin edilərək erməni mediasında paylaşılıb. Məsələyə münasibət bildirən Oleq Kuznetsov isə bildirir ki, Xocalı qətliamının erməni cəlladları tərəfindən deyil, guya ruslar tərəfindən törədildiyini deyən Nikol Paşinyan növbəti dəfə özünü gülünc vəziyyətə saldı: "Xocalı hadisələri ilə bağlı 2016-cı ildə rus və ingilis dillərində işıq üzü görmüş "Transmilli erməni terrorizmi tarixi - XX əsrdə" kitabımda detallı olaraq bu soyqırımı təşkil edən qüvvələrdən və onların başında duranlardan yazmışam. Paşinyan qismən haqlı olaraq Xocalıdakı cinayətlərə görə məsuliyyətin Qarabağ ermənilərinə aid olmadığını söyləyir. Soyqırımın əsas günahkarları üç etnik erməni olan ABŞ vətəndaşının - Monte və Markar Melkonyan və Jirair Səfilyanın Livan, Suriya, İordaniya əsilli ermənilərdən yaratdığı "Arabo batalyonu" adlı qanunsuz silahlı qruplaşmaya daxil olan ermənilərdən ibarət beynəlxalq terrorçular olub. Qeyd edim ki, adı çəkilən Jirair Səfilyan 2016-cı ildə Ermənistanda çevriliş etməyə cəhd göstərən "Sasna Tsrer" qruplaşmasına rəhbərlik edir". Kuznetsovun sözlərinə görə, Xocalı qətliamının əsas qüvvəsi çox sayda etnik ermənini özündə cəmləyən, Ermənistanın keçmiş müdafiə naziri, general-mayor Seyran Ohanyanın komandanlığı altında tapşırıqları yerinə yetirən 366-cı motoatıcı alayın 2-ci batalyonu idi. Onlar əsasən Ermənistanın yerli sakinləri idi. Ohanyan Qarabağ ermənisi olsa da, atası azərbaycanlı idi: "Nikol Paşinyanın 366-cı motoatıcı alayın ruslara aid olduğunu dilə gətirməsi böyük siyasi səhvdir. 25 fevral 1992-ci il tarixindən etibarən bu alay MDB Birgə Silahlı Qüvvələrinin bir hissəsi idi, baxmayaraq ki, Rusiya Baş Qərargahının komandanlığına təhvil verilərək Orenburq vilayətinə dislokasiya olunmalı idi. Həmin vaxt alayın rus komandanlığının tərkibinə təhvil verilməsi barədə bir əmr də verilmişdi, amma bu baş tutmadı. Məsələnin maraqlı hissəsi ondan ibarətdir ki, 25 fevral 1992-ci il çərşənbə axşamı idi. Alayın yeni növbətçi stansiyaya təhvil verilməsi martın 2-si bazar ertəsi günü başlamalı idi. Seyran Ohanyan bu barədə alay komandirindən bir gün əvvəl, fevralın 24-də - bazar ertəsi günü müşavirə zamanı xəbər tutmuşdu.

Ohanyan gözəl başa düşürdü ki, artıq erməni separatçıları martın 2-dən etibarən bu alaydan silah-sursat bazası kimi istifadə edə bilməyəcək. Məhz bu səbəbdən o öz tabeliyində olan 366-cı motoatıcı alayın 2-ci bölüyünü təcili olaraq Xocalıya tərəf aparır və əsas məhvedici qüvvə kimi istifadə edir. Ohanyan və onun bu bölükdən olan bir neçə erməni əsilli zabiti Melkonyan-Səfilyan silahlı birləşməsinə qatılır". Rusiyalı tarixçi "axar" portalına bildirib ki, həmin ərəfədə 366-cı alayın bir hissəsi əmrə uyğun olaraq Vazianidəki Rusiya hərbi bazasına çəkildi və martın 10-da ümumiyyətlə dağıdıldı, bu alayın zabitlərindən heç biri Rusiya Silahlı Qüvvələrinə qəbul edilmədi. Xocalı cinayətlərinin utanc pərdəsinə bürünmüş 366-cı motoatıcı alay hazırda da mövcud deyil: "Paşinyan növbəti dəfə özünü biabır etdi. Bu statusu yazmamışdan qabaq gərək o, heç olmasa, Vikipediyanı açıb oxuyardı. Ən azından, təqaüddə olan Seyran Ohanyana da zəng edib soruşa bilərdi". Bütün bunlar bir daha Paşinyanın hansı yuvanın quşu olduğunu aydın şəkildə təsəvvür etməyə imkan verir. Erməni mediası yazır ki, Paşinyanın sərsəmləmələri nəticə etibarı ilə Rusiyanı Ermənistandan daha çox uzaqlaşdırır və onu güclü Azərbaycan qarşısında yalnız qoyur. Bu halda Azərbaycanın qısa müddətdə zəbt olunmuş əraziləri azad etməsi də qaçılmaz sayılır.

Aydındır ki, Rusiyanın əlini Ermənistanın üzərindən çəkməsi İrəvanın durumunu xeyli ağırlaşdıracaq. Belə vəziyyət avtomatik qaydada Qarabağ münaqişəsinin gedişinə də təsir edəcək. Bunu Ermənistanın "1in.am" saytı da xüsusi olaraq qeyd edir: "Aydındır ki, Rusiya bölgədə savaşı önləyəcək mühüm mövqe sahibi kimi çıxış edir. Amma hazırda Rusiya ilə Ermənistan hakimiyyətinin münasibətlərində böhran qeydə alınır. Bu isə yeni Qarabağ savaşını tətikləyə bilər. Buna uyğun olaraq, münaqişənin tənzimlənməsi prosesinə beynəlxalq baxış dəyişməlidir və məsələnin, necə deyərlər, "ərazilərin qaytarılması" prinsipi əsasında "tənzimlənməsi"nin mümkünlüyü diqqət mərkəzinə gətirilir. Və qan tökülməsindən yayınmaq naminə atılacaq minimal addım, ən azı, danışıqlarda hansısa irəliləyişə nail olmaqdır. Əks halda, ən azı, dördgünlük aprel döyüşlərinin yenidən təkrarlanma ehtimalı yüksəlir. Həmin vaxt döyüşlərin dayandırılmasında Rusiyanın rolunu isə həm Ermənistan, həm də Azərbaycan etiraf edir. Amma o vaxtdan bəri çox şey dəyişib.

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Rusiyanın özünün bölgəyə münasibətində artıq fərq var. Bu fərq indiki vəziyyətdə Ermənistanın lehinə deyil və pisləşən münasibətlər Bakının gücə əl atma ehtimalını yüksəldir. Hər halda, bunları Ermənistanı hakimiyyətinin mütləq şəkildə nəzərə alması çox önəmlidir". Ekspertlər hesab edir ki, Ermənistanın xilası yalnız Azərbaycanla və Türkiyə ilə normal iqtisadi əməkdaşlıq şəraitində mümkün ola bilər. Bu da o zaman mümkün olar ki, ermənilər işğalçılıq siyasətindən, separatizmdən əl çəkib normal qonşuluq münasibətləri qursunlar. Amma indilikdə mövcud Ermənistan rəhbərliyi bu xüsusda müvafiq addımlar atmaq əvəzinə, vəziyyəti daha da kəskinləşdirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistan ordusunda cari ilin ötən dövrü ərzində qeydə alınan itkilərlə bağlı cəmiyyətdə qarşıdurma yeni vüsət alıb. Artan ölümələrlə bağlı Ermənistanda əsgər anaları hökumət binası qarşısında yeni etiraz aksiyası keçirib.**

# Ermənistan ordusunda zabitlərin biznesə qurşanması intiharların müstəsna səbəbi kimi - Paşinyandan cəmiyyəti güldürən açıqlama...

Etiraz aksiyasının koordinatoru, "Helsinki Assosiasiyası" ictimai təşkilatının sədri Nina Karapetyants bildirib ki, son 40 gün ərzində Ermənistan ordusunda nəsə qəribə bir şey baş verir, çünki əsgərlər anlaşılmaz şəraitdə ölürlər: "İki vacib problem barədə söhbət gedir: sərhədlərimizin təhlükəsizliyi və ordunun təhlükəsizliyi. Orduda çox qəribə şeylər baş verir və söhbət uşaqlarımızdan gedir. Onlar başa düşmürlər ki, hansı şəraitdə rəqib gülləsindən yox, daxildə ölürlər".

Etirazçılar baş nazir Nikol Paşinyanla görüşməyi tələb edib. Onlar baş nazirlə ciddi danışmaq istədiklərini bildiriblər. Amma Paşinyan valiydenlərlə görüşməyib. Əvəzində isə ordudakı itkilərlə bağlı gülməli açıqlamalar verib. Paşinyanın sözlərinə görə, ölüm hallarına hərbçilərin maaşlarının artması səbəb ola bilər:"Pul vəsaitinin həcmi artanda mübahisələr və "bazarlar" da güclənir". O, digər səbəb kimi kriminal submədəniyyəti göstərib:"Ermənistan ordusunda dinc şəraitdə qeydə alınan hərbçi ölümlərinin səbəbi kriminal submədəniyyətin varlığı ola bilər". Amma erməni general-mayor Arkadi Ter-Tadevosyan Ermənistan ordusundakı ölüm hadisələrinin səbəbini başqa prizmadan axtarmağın vacib olduğunu vurğulayır. O qeyd edib ki, cəmiyyətdə olan son iki ildəki düşmənçilik hər yerə, o cümlədən orduya da keçib: "Hər birimiz bir fikrə sahibik, lakin bu fikirin düzgün olduğunu deyə bilməzsən. İnşaallah, mən səhv edim, lakin siz yaxşı bilirsiniz ki, bu 2 il ərzində qaralarla ağlar arasında bir xətt çəkildi və bir düşmənçilik atmosferi yaradıldı. Bu düşmənçilik hər yerə keçdi, bir-birini bağışlaya, bir-birinə güzəştə gedə bilmirlər. Hesab edirəm, bu belədir. Belə vəziyyətdə orduda itkilər hələ çox olacaq". "1in.am" nəşrinə açıqlamasında erməni hüquq müdafiəçisi Vardan Arutyunyan isə məsələyə belə yanaşır:"Bunlar reallığımızın ən kədərli hallarıdır və son zamanlar anlaşılmaz şəkildə kifayət qədər çoxalıb: mən bu halların niyə xüsusilə indi çoxaldığını bilmirəm. Bir şey aydındır: orduda bütün bu intiharlar mahiyyətcə qətldir, çünki gənclər intihar edir və onlar bu addımı yalnız o halda ata bilərdilər ki, onları intihar həddinə çatdıraydılar. Yəni bu hərbi hissələrdə elə şərait yaradılır ki, gənc özünə atəş açmaqdan başqa çıxış yolu tapmır". Onun sözlərinə görə, nizamnamədənkənar münasibətlər hər zaman ordularda bu cür vəziyyət yaradıb:

"Qeyri-qanuni varlananlar siyahısının böyük hissəsi hərbçilərdir: əsgərlə məşğul olmaq əvəzinə bizneslə məşğul olublar".

Erməni ekspert Sarkis Artsruni da bildirib ki, orduda yüksək vəzifəli şəxslərin bizneslə məşğul olması davam etdikcə, əsgər və zabitlərin qeyri-döyüş şəraitində də itkisi davam edəcək: "İcra hakimiyyətinin ordudakı vəziyyətlə bağlı verdiyi açıqlamalar, düzünü desək, şablondur və bir sıra suallara cavab vermir. Paşinyanın da məsələyə yanaşması sadəcə istehza doğurur. Onun hərəkətsizliyi və ya səhlənkarlığı ilə üzüzə qalmışıq. Bütün dəlillərin hər bir cinayətdə aydınlaşdırılması lazımdır ki, orduda baş verən hər bir hadisəyə hərtərəfli cavab ala bilək, həmçinin parlament və ya ictimaiyyət ümumi mənzərə, meyllər barədə hərtərəfli rəy formalaşdıra bilsin. Müdafiə naziri ilə Silahlı Qüvvələrin Baş Qərargah rəisi arasında rəvan olmayan münasibətlər də ordunu çökdürür. Bir şey aydındır, ordudakı vəziyyət dərin, hərtərəfli müzakirələrə ehtiyac duyur, burada həll yolları institusional, qanunvericilik və kadr səviyyələrindən daha çoxşaxəlidir. Xüsusi vəzifəli şəxslərin, bəlkə də hətta yüksək vəzifəli şəxslər cəzalandırılmadığı, işdən çıxarılmadığı və çiynindən rütbələri sökülmədiyi təqdirdə, siyasi məsuliyyət problemi yaranacaq və ictimaiyyət artıq hərbi, nazir və ya qərargah rəisindən yox, siyasi hakimiyyətdən, baş nazirdən cavab tələb edəcək. Baş nazir isə məsələ ilə bağlı sadəcə gülüş doğuran bir mövqe sərgiləyir. Ermənistan Müdafiə Nazirliyi bu durumda hətta qətlə yetirilən və intihar edən hərbi qulluqçuları hesablamağı belə çatdıra bilmir".



Keçmiş erməni döyüşçü Şahe Acemyan isə bildirir ki, orduda ölüm hadisələri yenilik deyil, lakin bu miqyasda, yəni 1 ay ərzində 13 ölüm hadisəsi görünməmiş bir şeydir: "Səbəblər çoxdur. Cəmiyyətin səhvləri orduya çatır, digərlərindən fərqlənən inqilabçı gənclər peyda olub.

**Bir şey aydındır ki, orduda qanunlar dəyişdirilməlidir". Erməni hərbi və ictimai xadim Gevorq Gevorqyanın sözlərinə görə, Ermənistan ordusunda hökm sürən hazırkı atmosferin bir nömrəli cavabdehi Nikol Paşinyandır: "Nikol Paşinyanın bölüşdürücü xətlərinə görə orduda bu cür atmosfer var. Ordu haqqında danışmazdan əvvəl ordunu tanımaq lazımdır". Gevorqyan bildirib ki, Paşinyanın dönəmində orduda ölüm hallarının daha da artmasını gözləmək olar. Bütün bunlar bir daha erməni ordusunda dərin bir xaosun hökm sürdüyünü aydın nümayiş etdirir. Hesab edilir ki, bu gedişlə erməni orldusunda xidmət etməyə adam tapılmayacaq.**

***Tahir TAĞIYEV***

**Suriyadan gələn son məlumatlar burada Rusiya və Türkiyə arasında artıq savaşın getdiyini deməyə əsas verir. Belə görünür ki, tərəflər yaxın tezlikdə bir araya gəlməsə, savaşın miqyası daha da böyüyüb kifayət qədər təhlükəli xarakter alacaq. Çünki hadisələr türk ordusunun Suriyada əməliyyata başlalmasından sonra xeyli kəskinləşib.**

# İdlibdə Rusiya və Türkiyə ordusu bir-birini vurdu, Türkiyə ABŞ-dan iki "Patriot" istədi...




Xatırladaq ki, Suriya ordusu Rusiya aviasiyasının hava dəstəyi ilə İdlibdə Türkiyənin dəstəklədiyi "Həyyat Təhrir əş-Şam" qruplaşmasına qarşı hücumları davam etdirərək, ölkənin şimalı ilə cənubunu birləşdirən strateji əhəmiyyətli şosseyə nəzarəti ələ keçirib. Suriya ordusunun irəliləməsi nəticəsində Türkiyə ordusunun müşahidə postları arxada qalıb. Prezident Rəcəb Tayyip Ərdoğan xəbərdarlıq edib ki, Əsəd qüvvələri fevralın sonuna qədər İdlib deeskalasiya zonasının gerisinə çəkilməsə, Türkiyə ordusu hücuma başlayacaq. Artıq əməliyyatın ilk mərhələsi başlayıb. Müxalif qüvvələr Türkiyə ordusunun tank və artilleriya dəstəyi ilə hücum edərək Neyrab qəsəbəsini tutub, lakin çox keçməyib ki, Rusiyanın hava zərbələri ilə Əsəd ordusu əkshücuma keçib və müxaliflər geri oturdulub. Bu zaman Əsəd aviasiyasının endirdiyi zərbə nəticəsində Türkiyə ordusunun bir tankı vurulub, iki tankçı həlak olub, 5 hərbçi yaralanıb. Ardınca Türkiyənin dəstəklədiyi silahlı müxalifət isə Əsəd ordusunun nəzarətində olan bir neçə kəndi azad edib. Onların hücumu nəticəsində Əsəd ordusunun 5 tankı, 2 silahlı texnikası, 1 raketi və hərbçiləri daşıyan 2 zirehli avtomobili, 50-dən artıq hərbçisi məhv edilib. Buna cavab olaraq Rusiya hərbi təyyarələri İdlibdə irəliləyən türk əsgərlərini və müxalifləri bombalayıb. "Bloomberg"in xəbərinə görə, Türkiyə bu fonda ABŞ-dan 2 "Patriot" raket batareyası istəyib.

Yaranmış vəziyyətdə Rusiyanın Suriyadakı hərbi komandanlığı Türkiyəni əməliiyatı dayandırmağa, Bəşər Əsədə qarşı olan silahlı qruplaşmaları dəstəkləməməyə, onlara silah verməməyə çağırıb.

Türkiyənin müdafiə naziri Hulusi Akar isə mövqelərinin müdafiəsi üçün Suriyada istənilən qüvvə ilə üz-üzə gəlməyə hazır olduqlarını bildirib. O qeyd edib ki, Suriya münaqişəsinə dair tərəflər arasında fikir ayrılığı yaranıb: "Problemin həlli üçün Ankara və Moskva arasında dialoq davam edir. "İdlibdə, güc sərf etməklə də olsa, atəşkəsi təmin edəcəyik. Bizim A, B, C planlarımız hazırdır, yeri gəldikcə tətbiq olunacaq. Biz Soçi razılaşmasının arxasındayıq, sadəcə, Rusiya və İran buna əməl etsin". Akar Suriyada sabitliyi bərpa edəcəklərini bəyan edib. Nazirin sözlərinə görə, sabitliyi bərpa etmək üçün güc tətbiq etmək lazım olarsa, Türkiyə bundan çəkinməyəcək və buna hazırdır. Amma Akar təsdiq edib ki, İdlib üzərində hava məkanına Rusiya nəzarət edir və belə vəziyyət Türkiyə ordusunun hücumunu çətinləşdirə bilər. Ona görə də Rusiyanın qarışmaması üçün danışıqlar aparılır. Müdafiə naziri yaranmış vəziyyətdə NATO-nun Türkiyəyə mümkün dəstəyi haqda danışıb. Bildirib ki, ABŞ əsgərlərinin İdlibə daxil olması müzakirə edilmir, belə plan yoxdur. Amma NATO Türkiyəyə dəstək olaraq "Patriot" zenit-raket komplekslərini göndərə bilər:"Çünki Türkiyəyə yönələn həm hava, həm raket təhdidləri var. Bu mənada, bir "Patriot" batareyasının göndərilməsi mümkün ola bilər".

Hazırda görünən budur ki, nə Rusiya, nə də Türkiyə döyüş meydanında üz-üzə gəlmək istəyir. Elə rusiyalı ekspert Yelena Suponina da bildirir ki, Moskva və Ankara İdlib bölgəsində gərginliyin daha da dərinləşməməsi üçün səy göstərəcək:"Son hadisələr dönüş nöqtəsinə qədər gəlib çıxıb. Gərginlik artır, lakin bu gərginliyin azaldılması yönündə səylər göstərildiyinə dair məlumatlar da var. İran indi müəyyən razılaşmanın əldə olunması üçün cəhdlər edir. Hətta gündəmdə Rusiya, Türkiyə və İranın iştirakı ilə üçtərəfli sammitin keçirilməsi məsələsi də var. Lakin bu barədə danışmaq olduqca tezdir. Çünki belə görüşün baş tutması üçün lazımi hazırlıqlar görülməlidir". Suponina əlavə edib ki, Rusiya və Türkiyə arasında hər sahədə, xüsusən iqtisadi sferada əldə edilmiş güclü əməkdaşlığa baxmayaraq, baş verən son proseslər hər iki tərəf üçün həyəcan siqnalıdır. Yaranmış vəziyyətdə Vaşinqton Moskva və Dəməşqi Suriyanın şimal-qərbindəki situasiyanın eskalasiyasında ittiham edib. BMT Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı ABŞ-ın BMT-dəki Daimi Nümayəndəliyinin rəhbəri Kelli Kraft ABŞ-ın Ankaranın fəaliyyətini dəstəklədiyini bildirib:"Biz Rusiya nümayəndə heyətinin Türkiyəni ittiham edən bəyanatını inkar edirik. Suriyanın şimal-qərbindəki hərbi kampaniyanın keçirilməsi və təşkilinə görə məsuliyyəti Türkiyənin yox, Əsədlə Rusiyanın daşıyacağına dair heç bir şübhə yoxdur. Biz Türkiyənin, NATO üzrə müttəfiqimizin qanuni maraqlarını dəstəkləyirik".

**Kreml sözçüsü Dmitri Peskov isə bildirib ki, Rusiya, Türkiyə və İran prezidentləri arasında Suriya böhranı ilə bağlı üçtərəfli görüşün keçirilməsi üçün müzakirələr davam etdirilir:"Hələlik görüşün keçiriləcəyi tarix barədə razılıq əldə edilməyib. Rusiya tərəfi görüşlə bağlı müsbət cavab verib. Amma bildiyiniz kimi, hər üç prezidentin proqramlarına əsasən görüşün vaxtı təyin edilməlidir. Dəqiq tarix müəyyən edildikdən sonra ictimaiyyətə açıqlama veriləcək". Hesab edilir ki, tərəflər danışıqlar masası arxasında bir araya gəlməsə, Suriyada dəhşətli bir savaş başlana bilər.**

***Nahid SALAYEV***

# Xocalı və Gədəbəy mədəni irs nümunələri dünya muzeylərinə necə düşüb...

**Azərbaycan xalqına məxsus mədəni irs nümunələrinin çox az hissəsi yerli, böyük bir hissəsi isə xarici muzeylərdə, kolleksiyalardadır. Tarixi-mədəni irsimizin xarici ölkə muzeylərinə daşınması, müxtəlif kolleksiyaçıların kolleksiyalarında yer alması uzun illərdir bizə məlumdur.**

Həmişə bizi maddi-mədəni irsimizin xarici ölkə muzeylərinə və xarici kolleksiyaçıların kolleksiyalarına hansı yollarla düşdüyü düşündürür.

Bu gün xarici ölkə muzeylərində Xocalı-Gədəbəy mədəniyyətinə aid saysız maddi irs nümunəmizin xarici muzeylərdə olduğu haqda arabir məlumatlar eşidirik. Son zamanlara qədər isə reallıqda heç bir tədqiqatçı alim xarici ölkə muzeylərinə gedib oradakı maddi mədəniyyət nümunələri ilə maraqlanmayıb.

Yeri gəlmişkən qeyd edək ki, Xocalı-Gədəbəy mədəniyyəti Azərbaycanın Gədəbəy və Xocalı rayonu ərazisindəki abidələr, yerli türk əhalisinin yaşayış tərzi, ənənələri və digər mədəniyyət nümunələridir. Xocalı-Gədəbəy mədəniyyətinin mərhələlərinə gəlincə, onun ilk mərhələsi e.ə. XIV-XIII əsrlərə aid edilir. İkinci mərhələsi isə e.ə. XII-XI əsrlərə aiddir.

Bildirdiyimiz kimi, son illərə qədər xarici muzeylərin ekspozisiyasında yer alan Xocalı-Gədəbəy mədəniyyətinə aid maddi irs nümunələrimizlə bağlı geniş araşdırma aparılmayıb.

Berlində yerləşən Qafqaz Tədqiqatları İnstitutunun rəhbəri, alim, tədqiqatçı, dosent, yazar Nuridə Atəşi öz tədqiqatları ilə bu istiqamətdə sükutu pozmağı bacarıb. N.Atəşi ömrünün on ilini xarici muzeylərdə olan Xocalı-Gədəbəy maddi-mədəni irsinin tədqiqatına həsr edib.

Xocalı-Gədəbəy mədəniyyətinə aid maddi irs nümunələri xarici muzeylərə necə gedib çıxıb?

Nuridə Atəşi "Bakı-Xəbər"ə bunun sirlərini açdı. "Mən ixtisasımı arxeologiya sahəsinə dəyişdim və son on ili arxeoloji tədqiqatlarla məşğul oldum. Elmi işimlə bağlı Avropa muzey və arxivlərində tədqiqatlar aparırdım. 6 dildə, 7 ölkədə böyük tədqiqatlarla məşğul oldum və bu yaxınlarda Leon 1 Universitetində ilk qafqazşünas alim kimi müdafiə etdim, elmi dərəcə aldım. Arxeologiya elminə Xocalı-Gədəbəy mədəniyyətinin tədqiqatları ilə başladım. Əvvəlcə bu mədəniyyətin maddi irsini araşdırmaq istədim və bu məqsədlə Azərbaycan muzeylərinə üz tutdum. Tədqiqatlar zamanı məlum oldu ki, Azərbaycan muzeylərində Xocalı-Gədəbəy mədəniyyətinə aid çox az sayda eksponat var. Maraqlıdır ki, Berlin muzeyində tədqiqatlarımı davam etdirərkən qarşıma Xocalı-Gədəbəy mədəniyyətinin nümunələri olan kifayət qədər eksponat çıxdı. Amma təəssüf ki, o eksponatların üzərinə yazılmır ki, bunlar Xocalı-Gədəbəy mədəniyyətinin nümunələridir, bu materiallar Azərbaycandan aparılıb. Sadəcə, yazılır ki, Qafqaz materialları, balta, inventar nömrəsi filan. Bundan sonra mən başqa xarici muzeylərin də qapısını döyməyə başladım ki, dissertasiya yazıram və muzeylərdə tədqiqatlar aparmalıyam. Bu yolla muzeylərə daxil oldum. Avropa və Rusiya muzeylərində indiyə qədər elmə məlum olmayan Xocalı-Gədəbəy mədəniyyətinə aid böyük kolleksiyalar kəşf etdim. Moskva, Sankt-Peterburq, Almaniya, Avstriya muzeylərində bizə aid kifayət qədər maddi irs nümunəsi var. Xocalı-Gədəbəy mədəniyyətinə aid maddi irs nümunələri xarici muzeylərdə hansı xalqın adı ilə təqdim edildiyi də məni maraqlandırırdı. Mən buna sırf elmi nöqteyi-nəzərdən yanaşdım. Əvvəlcə araşdırdım ki, onlar necə olub gedib o muzeylərə çıxıb. Bilirsiniz ki, 1860-cı illərdə Siemenslərin zavodu fəaliyyət göstərirdi. Berlində yaşayan antropoloq, siyasətçi, həkim Rudolf Virxov elmdə indo arialıları axtarırdı, yəni irq tədqiqatları ilə məşğul idi. O da indo arialıları Qafqazda axtarırdı. O, "Siemens" zafodunun, firmasının rəhbəri ilə yaxın dost idi. O vaxt "Siemens" şirkətinin işçilərinə Gədəbəydə qanunsuz arxeoloji qazıntılar aparmağa icazə verilirdi. "Siemens" firmasının işçiləri tərəfindən aparılan qanunsuz qazıntılar zamanı aşkarlanan arxeoloji materiallar Almaniyaya daşınırdı. Bunlar Xocalı-Gədəbəy mədəniyyətinin maddi irs nümunələri idi. Bu materaillar Berlin, Hambruq, Münhen muzeyinə, o vaxt Almaniyanın tərkibində olan Dansik muzeylərinə daşınıb satılırdı. Burada məqsəd həm pul qazanmaq, həm də bu materialları indo arialı irqinin Qafqazda tapılmasını "sübut edən" nümunələr kimi təqdim etmək idi. Təbii ki, bu daha çox "erməni mədəniyyəti"nin adına yazılırdı, digər tərəfdən də Qafqaz irsi kimi qeyd edilirdi".

***Nuridə Atəşi:** "Avropa və Rusiya muzeylərində indiyə qədər elmə məlum olmayan Xocalı-Gədəbəy mədəniyyətinə aid böyük kolleksiyalar kəşf etdim"*



*"...aparılan qanunsuz qazıntılar zamanı aşkarlanan arxeoloji materiallar Almaniyaya daşınırdı"*

N.Atəşi qeyd etdi ki, o bu yanlış təsəvvürü dəyişmək üçün daimi olaraq fəaliyyət göstərib, Xocalı-Gədəbəy mədəniyyətinə aid çıxışlar edib, yüksək indeksli jurnallarda xeyli sayda məqalə nəşr etdirib. Bununla yanaşı, il ərzində də ən azı 4-5 konfarnsda bu məsələ ilə bağlı çıxışlar edir. "Xocalı-Gədəbəy mədəniyyəti Qafqaz arxeologiyasında böyük bir boşluq idi. Yəni bu mədəniyyəti qloballaşdırıb aktual bir problemə çevirdim. Həm Azərbaycan, həm Rusiya, həm Almaniya, Avropa elmi qarşısında bu məsələni qaldırdım və beynəlxalq elm aləmindən və yüksək səviyyəli qafqazşünas alimlərdən böyük dəstək aldım.

**Məni Fransanın Leon 1 Universitetində müdafiə etməyə dəvət etdilər. Çünki bu universitet qafqazşünaslıqla ciddi məşğuldur və böyük tədqiqatları var. Almaniyada müdafiə etməməyimin səbəbinə gəlincə, bu ölkənin ali məktəblərində qafqazşünaslıq yoxdur. Bu məsələ ilə məşğul olan universitetlər tapmaq mümkün deyil. Bu sahədə boşluq gördüyüm üçün özümü qafqazşünas kimi ixtisaslaşdırdım. Bilirsiniz ki, 25 ildir Almaniyada yaşayıram. Alman dilini də bildiyim üçün bu sahədə tədqiqatlar aparmaq bir azərbaycanlı, bir vətəndaş kimi borcum idi".**

***İradə SARIYEVA***

# Regionların iqtisadiyyatına məmurların böyük maneçiliyi - örüş torpaqları zəbt edilir

**Ölkəmizdə kənd təsərrüfatının əsas sahəsi olan heyvandarlığın inkişafı istiqamətində mühüm işlər həyata keçirilir. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, daha məhsuldar heyvan cinslərinin yetişdirilməsi ilə bağlı dövlətin göstərdiyi diqqət və qayğı öz bəhrəsini verməkdədir.**



Lakin heyvandarlıqla məşğul olan rayonların hamısında, demək olar ki, bir problem kəndçiləri və fermerləri dərindən narahat edir. Söhbət örüş yerlərinin azalmasından gedir. Örüş sahələrinin azalmasını heyvandarlıqla məşğul olan fermerlər də təsdiqləyirlər. Bu problemə görə təsərrüfatındakı heyvanların baş sayını azaldanlar da var.

Mal-qaranın tövlə şəraitində, örüşə çıxarılmadan uzun müddət saxlanması fermerin əlavə vəsait xərcləməsi deməkdir. Məsələn, Qubadakı örüş sahələrinin sahəsi 89 min hektardır. Bunun da çoxu dəniz səviyyəsindən 1500-3000 metr yüksəklikdə yay otlaq sahələridir. Əsas problem heyvanların qışda otarılması üçün sahələrin az olması ilə bağlıdır. Bildirilir ki, rayonların çoxunda örüş yerləri yerli və başqa məmurlar tərəfindən zəbt olunub. Həmin ərazilərdə yalnız onlara məxsus olan heyvanlar otlayır, ya da həmin yerlərdən əkin sahəsi kimi istifadə olunur.

## *Vahid Məhərrəmov: "Həmin sahələri monopolistlərin əlindən alıb, kəndliyə qaytarmaq lazımdır"*

Bu ciddi problemlə hansı səviyyədə məşğul olunmalıdır ki, ölkəmizdə heyvandarlıq inkişaf edə bilsin?

Kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov "Bakı-Xəbər"ə bildirdi ki, bu olduqca ciddi problemə çevrilib: "Biz dəfələrlə bununla bağlı məsələni gündəmə gətirmişik. Bildirmişik ki, böyük sahələrdə böyük fermer təsərrüfatlarının yaradılması yaxşı hal deyil. Bütün dünyada ölkə əhalisinin ərzaq təminatının ödənilməsində böyük rolu orta və kiçik sahibkarlar həyata keçirir. Bunun rəqəmlə ifadəsi 70 faizdir. Biz bu rəqəmi dünyaca məşhur olan FAO-nun apardığı araşdırmanın nəticələrində də görürük. Dövlət başçısının özü də müşavirədə bildirdi ki, böyük təsərrüfatların yaradılması fayda vermir və çalışmaq lazımdır kiçik və orta sahibkarlıq inkişaf etsin. Hazırda 262 min hektar örüş sahəsi kəndlilərin əlindən alınıb, orada böyük təsərrüfatlar yaradılıb. Bu da kəndlilərin narazılığına səbəb olur. Kənddə yaşayan əhalinin böyük hissəsi heyvandarlıqla məşğul olur. Əgər örüş sahəsi yoxdursa və yem istehsalı da aşağı səviyyədədirsə, qalan örüş sahələrinin də monopolistlərə verilməsi daha pis nəticələrə gətirib çıxara bilər. Belə olan halda, kəndçilər məcburiyyət qarşısında heyvanlarını kəsimə verirlər. Çox təəssüflər olsun ki, hətta ölkə başçısının xəbərdarlığından sonra da bu proses dayandırılmayıb. Müşavirədə qeyd edildi ki, dövlət hesabına heyvandarlığın inkişafı üçün vəsait ayrılan sahibkarlar həmin sahədən imtina edirlər. Çünki münbit şərait yoxdur. Bu sahəyə dövlət büdcəsindən 2 milyard 400 milyon manat vəsait ayrılıb. Baxın, əgər bir neçə il əvvəl ölkəyə ət idxalı təxminən 5-6 min ton idisə, indi 60 minə çatıb. Bi ilin birinci aylarında ət və süd idxalı ciddi şəkildə artıb. Bu da o deməkdir ki, istehsal azalıb. Düşünürəm ki, örüş sahələri ilə bağlı problemi hökumət nəzərə alıb, çıxış yollarını tapmalıdır. Həmin sahələri monopolistlərin əlindən alıb, kəndliyə qaytarmaq lazımdır".

*Məhəmmədəli QƏRİBLİ*

# Prezident Administrasiyasına daxil olan şikayətlər arasında MTK-ların insanlara zülmü əsas yer tutur

**"Bəzi çoxmərtəbəli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 fevral tarixli Fərmanının icrası ilə əlaqədar yaşayış komplekslərinin idarə edilməsində illərdən bəri mövcud olan problemlər və mülkiyyət hüququnu təsdiq edən sənədlərin verilməməsi ilə bağlı şikayətlər azalsa da, vətəndaşlar ötən il də Prezident Administrasiyasına tikinti şirkətlərinin fəaliyyəti ilə bağlı çoxsaylı müraciət göndəriblər.**



Bu fikirləri Prezident Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov "Azərbaycan Prezidentinin dərin islahatları vətəndaş müraciətlərində qaldırılan məsələlərin həllinə böyük inam yaradır" başlıqlı məqaləsində qeyd edib.

Məqalədə qeyd edilib ki, il ərzində 100-dən çox tikinti şirkəti tərəfindən çoxmərtəbəli yaşayış binalarının inşasında müvafiq norma və qaydalara, həmçinin, müqavilə şərtlərinə riayət edilməməsindən, tikinti işlərinin vaxtında yekunlaşdırılmamasından, bəzi şirkətlərin mənzilləri iki və daha artıq şəxsə satmasından, kompensasiya verilmədən söküntü işlərinə başlanılmasından və ya kompensasiyaların az olmasından, təsdiq edilmiş layihədən kənara çıxılmasından, binaların təhlükə törədəcək dərəcədə yaxın məsafədə tikilməsindən, yaşayış komplekslərinin idarə edilməsindəki bəzi çatışmazlıqlardan, aldıqları mənzillərin başqalarına satılmasından şikayət ediblər. O da məlum olub ki, 51 tikinti şirkətindən şikayət daha çoxdur.

## *Nüsrət İbrahimov: "Əksər tikinti şirkəti götürdüyü öhdəliklərə əməl etmir və nəticədə vətəndaşlar bundan əziyyət çəkirlər"*

Görünən odur ki, hələ də tikinti şirkətləri vətəndaşları incidirlər. Üzərlərinə düşən öhdəlikləri yerinə yetirməkdən müxtəlif vasitələrlə yayınırlar. Ən dəhşətlisi odur ki, hələ də bəzi tikinti şirkətləri bir mənzili bir neçə nəfərə satmaq kimi dələduzluq hallarına yol verirlər.

Məsələyə münasibət bildirən əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimovun sözlərinə görə, tikinti şirkətlərinin çoxu əvvəl verdikləri vədləri sonra yerinə yetirmir: "Ən çox şikayət müqavilə öhdəliklərinin yerinə yetirilməməsi ilə bağlıdır. Məsələn, müqavilədə tikintinin başaçatma müddəti 2 il göstərilir. Ancaq tikinti illərlə çəkir və vətəndaş 6-8 il gözləməli olur. İkincisi, müqavilədə göstərilən şərtlərə əməl olunmur. Tikintiyə başlayanda müxtəlif vədlər verirlər ki, filan-filan şeylər olacaq. Ancaq bina hazır olandan sonra məlum olur ki, deyilənlərin çoxuna əməl olunmayıb. Üçüncüsü, tikinti şirkətləri mənzil sahələrini və qeyri-yaşayış sahələrini düzgün hesablamırlar. Bununla bağlı şikayətlər və məhkəmə çəkişmələri daha çox olur. Dördüncüsü, vətəndaşlar mənzilə köçəndən sonra sənədləşmə problemləri ilə üzləşirlər. MTK-lar mənzillərin sənədləşmə məsələləri ilə məşğul olmurlar. Bunu mənzil sahiblərinin öhdəsinə atırlar. Beşincsi, tikinti şirkətləri kommunal xidmətlərlə bağlı vətəndaşları incidirlər. Qeyri-rəsmi yığımlar edirlər. Bütün bunlar mənzil sahiblərini ciddi narahat edir. Çox az tikinti şirkəti var ki, öhdəliklərinə əməl edir. Əksər tikinti şirkəti götürdüyü öhdəliklərə əməl etmir və nəticədə vətəndaşlar bundan əziyyət çəkirlər".

> *"Müvafiq qurumlar tikintiyə icazə verməzdən əvvəl tikinti şirkətini araşdırmalıdırlar"*

N.İbrahimovun fikrincə, tikinti şirkətlərinin yol verdikləri neqativ halların qarşısını almaqdan ötrü bir sıra tədbirlər görülməlidir: "Müvafiq qurumlar tikintiyə icazə verməzdən əvvəl tikinti şirkətini araşdırmalıdırlar. Bəlli olmalıdır ki, MTK-nın maliyyə dayağı var, yoxsa yoxdur. Tikinti şirkətinin maddi-texniki bazasının nə yerdə olması müəyyən edilməlidir. Bütün bunlardan sonra onlara tikintiyə başlamaq icazəsi verilməlidir. Müvafiq qurumlar nəzarət etməlidirlər ki, tikinti şirkəti götürdüyü öhdəliklərə nə dərəcədə əməl edir. Yalnız bütün bunlardan sonra problem öz həllini tapa bilər".

*Vidadi ORDAHALLI*

# İgid ömrü

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

## *Nazim Hüseynov: "Füzulini Əsgəran GPZ-sində susdura bilmədilər"*

Fiqurə xanımın xatirələrini yeri gəldikcə sizlərin diqqətinə çatdıracağam. Hələliksə, Füzuli-Zamin xarakterinin açılması üçün onun yaşıdlarının, dostlarının dedikləri ilə davam edək. Əslində dostların dedikləri də bir kitabdəftərə sığası deyil. Onları da "İgid ömrü" kitabı boyu müxtəlif aspektlərdən işıqlandıraq ki, bu qəhrəman azərbaycanlı oğlunu səmimiyyətlə anıb, onun indiki və gələcək nəsillərə bilavasitə örnək olduğu faktlarını dəqiq-dürüst, mübaliğəsiz çatdıra biləк. Bu məqamda Füzulinin uşaqlıq, gənclik, döyüş, əqidə dostu, yaşıdı və qonşusu, həm də Xocalı aeroportunun polislərindən olan Nazim Hüseynovun dediklərindən bir hissəni oxuyun. Etiraf etməyi özümə borc bilirəm ki, Nazim həm də Fiqurə xanımla birgə mərhum dostu haqqında bilgiləri əldə edə bilməyimdə mənə çox böyük köməkliklər göstərdi. Onunla Xocalı batalyonunun sabiq komandiri, əslən məşhəti türkü Sərvər Rəcəbovun dünyamızdakı sonuncu günlərinə - Sabirabad rayonunun Ahıska kəndinə yetişib, onu da birgə danışdırmışıq. Qarşıdakı yazıları qaçırmayın. Hələ çox mətləblərdən agah olacaqsınız. Nazim məni Füzulinin dost-tanışları ilə görüşdürdü, bu müsahibə isə bizim Nazimlə tanışlığımızın başlanğıcıdır. Bakıdakı fəaliyyətini xocalılı qaçqınların bir qisminin məskunlaşdığı Azərbaycan Texniki Universitetinə məxsus tələbə yataqxanasına bağlayan Nazimlə elə bu ünvanda da görüşürük. Yeri gəlmişkən, bu insanlarla məni bağlayan bir sıra cəhətlər də var. Əvvələ, mərhum Füzuli də, Nazim də mənim həmyaşıdlarımdı. Nazimlə görüşdüyüm ünvan isə Bakı Dövlət Universitetindən üzü yuxarı Yasamalda "tələbə şəhərciyi" sırasıdır ki, mənim tələbəlik illərim buralara çox nostalji hisslərlə bağlıdı. Xocalılıların burada məskunlaşdığı vaxtlar bizim universitet və təbii ki, bu ərazilərlə müəyyən mənada xudafahizləşdiyimiz zamanla üst-üstə düşür. Bu hisslər altında xeyli duyğulandıqdan sonra Nazimlə söhbətə başlayıram.

**"Füzulinin babası Kərim kişi təpərli insan idi, qan bağlayardı"**

**- Füzuli ilə ilk tanışlığınızı xatırlayırsız?**

- Yaxşı xatırlayıram. Biz əslən Laçın rayonundanıq. Xocalıda gəlib Füzulinin babası rəhmətlik Kərim kişinin qonşuluğunda məskunlaşmağımızın əsas səbəbkarı elə Kərim kişinin özü olub. Kərim kişi çox diplomat, savadlı, təpərli kişi idi. Sözünün kəsəri vardı, qan bağlayardı. Elin dili ilə desək, keçmiş kişilərdən idi, ədavət yaratmaz, əksinə, adamları, küsülüləri barışdırardı. Bir sözlə, çox ədalətli bir adam idi.Tərtərin Hüsənli kəndində qızı rəhmətə gedəndən sonra köçüb Kəlbəcərdə Alaqayada yaşamışdı. Sonradan Xocalıya köç eləmişdi. Onun gəlişindən sonra - 1986-cı ildə Füzuli ilə ilk tanışlığımız oldu. Ermənilərin yaşadığı Kətik kəndinin tut bağları var idi o ərazidə.

**- Yeri gəlmişkən, Kətik erməni sözü idi?**

- Kətik, Naxçıvanik - əslində bizim sözlərdən yaranıb bu ifadələr. Sadəcə, sözlərin formasını dəyişdirib öz dillərinə uyğunlaşdırıblar.

**- Aydındı...**

- Hə, Füzuli ilə bu tut bağlarında üz-üzə gəldik ilk dəfə. Hələ bir balaca da savaşan kimi olduq. Bilirsiniz, onda bir inadkarlıq var idi. Onu öldürərdin, qabağından yeməzdi. Bir az bir-birimizi tutub sıxçaladıq, dedim axı sən kimsən? Cavab verdi ki, Kərim kişinin nəvəsiyəm. Kərim mənim babamdı deyəndə qayıtdım ki, axı biz qohumuq, niyə savaşırıq. Elə o tut bağından da aramızda



səmimi bir münasibət yarandı. Çünki Kərim kişiyə bizim böyük hörmətimiz var idi. Bizim orda yer alıb tikilməyimizə səbəbkar olmuşdu. Üstəlik, qürurlu, məntiqli kişiydi, əsl ağsaqqal idi, qan işini gedib həll edən, bağışlayan bir adam idi. Sonradan gəlib qonşu olduq. Bax, deyim ki, Füzuli ilə bizim aramızda "sənin-mənim evim" fərqi yox idi. Mən acanda gedirdim, Kərim baba oldu, ya həyat yoldaşı Tamaşa nənə idi, fərq eləmirdi, oturub onlarda yeyirdik, ya bizdə yeyirdik. Bir-birimizə o qədər doğmalaşmışdıq ki... Sonradan onu yaxından tanıdıqca bildim ki, uşaq vaxtı anasını, ardınca atasını itirib. Babası götürüb bunu himayəsinə, babasının qanadı altında yaşayıb. Xalası Səkinə arvad elə bütün ömrünü bu iki uşağa - bacısı balalarına həsr edib və s. Tanışlaşıb beləcə yaşamağa davam etdik Xocalıda.

**Xocalının qara günlərinin başlanğıcı - 1988-ci il**

**- Hadisələr nə vaxt başladı Xocalıda?**

- 1988-ci ilin Novruz bayramında hadisələr artıq başladı. Bu, Füzulini ilk andan narahat etdi. Tez-tez cavanları yığıb deyirdi ki, bu şərəfsiz ermənilərə baxın, gəlib bizim çörəyimizi yeyirlər, indi bizdən torpaqlarımızı da almaq istəyirlər. Bunları axır bir dənəsinə qədər qırmaq lazımdı. Biz də deyirdik ki, ə Füzuli, bəsdi də, qurtar bu söhbəti, sən Fantomas-zad deyilsən ki, gedib bütün ermənini qırasan. İndi inşallah qismət olar, bir yolla qisasımızı alarıq. Sonra bir qanlı olay baş verdi. Elə səksən səkkizinci il idi. Bir də gördüm ki, Xocalıdan erməni maşınları keçir, Füzuli də çıxıb erməni maşınlarını təkbaşına daş-qalaq edir. Soruşdum nə olub? Qaçdıq biz də ora. O zaman komendant saatı tətbiq olunmuşdu. Gördük Füzulini rus əsgərləri aparırlar Əsgərana. Mən çıxdım, sonra ikiüç nəfər - Şükür idi, Əkbər idi, İsrail idi - rus əsgərləri ilə əlbəyaxa olduq. Onlarda dəyənəklər var idi, amma birtəhər Füzulini dartıb onların əlindən aldıq. Bu zaman əlavə qüvvələr gəldi, bizim hamımızı da onun gözünə basıb birbaşa apardılar Əsgərana, komendaturaya. İndiki kimi yadımdadı. Axır çərşənbə günüydü. O günü biz Əsgəran "KPZ"-sinin içərisində keçirdik. Orda da bilmirik başımıza nə gələcək. Ruslar nəzarət eləyir, onlara da etibar yoxdu. Füzuli isə KPZ-nin içində də susmur. Orda da erməni milisləri var, amma heç nəyə məhəl qoymur, bunları nəyi var söyür. Deyirdi qoy gəlib məni öldürsünlər, amma mən onları təhqir edəcəyəm, qanım bahasına olsa da...

Gəlib hərəmizi atdılar ayrı-ayrı otaqlara. Qapını döyürəm, deyirəm söyüş söymə. Cavab verir ki yox, bunları belə-belə olsun-filan, sakitləşmir. Bir ucdan deyir ki, bunlar, yəni əraziyə nəzarət edən ruslar bizim torpaqlarımızı alıb öz dindaşlarına vermək istəyirlər, ermənilər kimdi axı, onlar bizim qonağımızdı. İnanın Allaha, o orda bir pəstah çıxardı, bir oyun çıxardı, mən şəxsən deyim ki, səsimi kəsib sakit oturdum. Çünki bildim ki, burda başqa şeylər danışmaq, artıq hərəkət eləmək olmaz. Amma onun o danışığı, hərəkəti qanına, ölümünə idi. Deyirdi qoy lap məni öldürsünlər, amma mən onları təhqir edəcəm. Səhərisi Xocalının icra başçısı Elman Məmmədov, bir də tatar millətindən olan komendant gəldilər. Komendant dedi mən də müsəlmanam, sizi Novruz bayramına görə bağışlayıram. Mən ona cavab verib söylədim ki, biz bəyəm neyləyirik, ermənilər silahla vurur, bizimkilər də daş atıblar da. "Kolon" gəlib keçənə qədər uşaq-böyük hamısı qanına qəltan olunur, bunun qarşılığında biz neyləmişik ki... dedim bəs sənin başına bu işləri gətirsələr, döysələr-söysələr qəbul edərsən?! Dedi yox. Dedim bəs biz necə qəbul eləyək?! Dedi amma olmaz da, komendant saatı qoyulub, ona əməl etmək lazımdı. Bax, elə həmin günlərdən də həm Xocalının qara günləri başladı, həm də Füzulinin iztirabları artdı.

**Evin tək oğlu olduğuna görə ona qıymırlar, amma...**

**- Füzuli daha gecələr yata bilmədi...**

- Bəli. Belə də oldu. Qət elədi ki, nəyin bahasına olursa-olsun erməniyə ziyan vuracaq. Bax, o aeroportun, körpünün partladılmasında deyirdilər ki, Füzulidən gizlin getmək lazımdı. Bilirsiniz niyə? Çünki Füzuli evin bir oğlu idi. Bir bacı, bir qardaş idilər. Onu istəyən insanlar qıymırdılar ona. Deyirdilər ki, gedər başına bir hadisə gələr, bacısı Füqurənin gözünü dikdiyi bircə yerdən də ümidi üzülər, başsız qalar. Amma sən saydığını say... bir də görürdün ki, Füzuli hardansa növbəti plandan xəbər tutub, hamımızdan qabaq həmin hadisə yerindədi. Sonra getdi babasının qoyununu satdı deyəsən, bir sandıqlı tir tüfəngi aldı.

**- Babası silahları ondan əvvəlcə həyətdə gizlədib, sonra Ağcabədiyə göndəribmiş...**

*(Ardı 15-ci səh.)*

(Əvvəli 14-cü səh.)

- Hə, onu bilirəm. Amma yenə də hardansa tapıb, alıb gətirirdi silahları. Hardan, hansı yolla alıb gətirirdi, bilmirdik. Özü də o məsələdə heç kimə sirr verməzdi. Amma belə oturanda ürəyində nə varsa hamısını bölüşürdü bizimlə. Əlqərəz, o, əldə etdiyi bu tüfənglə çinar ağacının üstündə oturub erməni maşınlarına atmağa başlamışdı. Qeyrəti yol vermirdi. Deyirdi, bu erməni gəlib mənim torpağımda yaşasın, çörəyimi yesin, sonra da desin ki, torpağını da ver mənə, özün çıx, aparıb torpağı Ermənistana birləşdirirəm. Buna necə dözmək olar?! Həzm eləyə bilmirdi. 5-6 erməni maşınını daşa basmışdı, tir tüfəngi ilə vurmuşdu. Gəldilər həbs elədilər, Əsgəranda məhkəməsi oldu, getdi bir altı aya yaxın Şuşada həbsdə yatdı.

**Siz müsəlmansınız!.. Füzuliyə ənçox nə təsir edirmiş o zamanlar?!..Nazim deyir ki, ermənilərlə bərabər rus əsgərlərinə də əsəbiləşirdi o zaman. Daha doğrusu, onların ermənilərlə bizim aramızda qoyduqları ögey-doğmalığa.... Deyirdi ki, bu şərəfsizlərə bax, azərbaycanlıları ermənilər daş-qalaq edəndə səslərini çıxarmırlar, amma bizimkilər bir daş atan kimi özlərini yetirib bizimkiləri tutur, həbs edir, cəzalandırırlar.**

- Mən bir hadisəni qeyd edim. 1990-cı il idi. Dərs ili başlayırdı. Düz sentyabrın 1-i idi. Xankəndidəki Pedaqoji İnstitut qarışıqlıqlar səbəbindən müvəqqəti olaraq Şuşaya köçürülmüşdü. Onun tələbələri əhali ilə birlikdə altı avtobusla kolonla gəlib Əsgəranı keçdilər, Xocalını keçdilər, Ağa körpüsünün qabağında ermənilər rus əsgərlərinin gözünün qabağında bu camaatı saxlayıb daş-qalaq elədilər. Azərbaycanlılar bütünlüklə qan içindəydilər. Onları qaytarıb Xocalıda yaralarını sarıdılar, başqa yardımları etdilər. Həmin anda təsəvvür edin ki, bir erməni kolonu da gəldi keçməyə. Neyləməliyik?!.. Biz başladıq. Şappa-şarap bu kolonu verdik daşın ağzına. Aradan 10-15 dəqiqə keçməmiş 80-90 nəfərlik Xüsusi Təyinatlıları tökdülər camaatın üstünə, qoca-uşaq fərqi qoymadan vurdular orda bir neçə nəfərin qol-qabırğasını qırdılar. Camaatı asfaltın, palçığın üstündə yerə uzatdılar ki, siz niyə erməniyə daş atmısız?! Göstərdim ki, bəs burda başı-gözü yarılan bu qədər qadını, qızı, uşağı görmürsüz, buna niyə göz yumursuz? Yüyürdü üstümə məni vurmağa. Aralarında məni idmançı kimi tanıyan bir baş leytenat var idi, o dedi ki, ne troqay emu (toxunmayın ona). Yaxınlaşdım dedim ki, biz elə hamımız SSRİ vətəndaşlarıyıq da, eyni hüquqlu. Mən cinayət etmişəmsə, cəzalandırın, razıyam sizinlə, axı bunlar cinayət törədir, siz isə bu cinayətlərə göz yumursunuz, sizin ədalətiniz, qanununuz budu? Nəyə görə bizə belə fərqli mövqelərdən yanaşırsız? Mənə qayıdıb rusca dedi ki, fərq yalnız sizin müsəlman, bunlarınsa xristian olmalarındadır. Tarix boyu bu münasibət belə olub, belə də olacaq. Dedi sənin xatirini çox istəyirəm, amma fakt faktlığında qalır... Bax, onun bu dediklərini artıq hamımız dərk etməyə başlamışdıq. Bilirdik ki, bu məsələlərin sonu yaxşı heç nə vəd eləmir. Amma yenə də insan öz vətənini heç nədən qoyub getmir axı... İnsan öz doğma yerlərinə bağlıdı. Düşünürsən ki, mən torpağımı necə qoyub gedim? Mən nəyə görə erməniyə qoyub getməliyəm torpağımı? Bura Azərbaycan torpağıdı, mənim torpağımdı, mən burda doğulmuşam. Amma bu proseslərin axarı bizləri də hiddətləndirirdi. Füzuli isə belə düşünənlərin öndə gedənlərindən idi və nəyin bahasına olursa-olsun, qəbul eləmirdi Xocalını tərk etməyimizi. Ondan sonra gedib o tir tüfəngini aldı, başladı maşınları verməyə o tirin ağzına. Həmişə ona deyirdik ki, belə işləri təkbaşına eləmə də, qoy məsləhətlə olsun, ancaq kimə deyirsən...

**- Füzuli həbsxanada yatarkən Şuşa həbsxanasına ermənilər nəzarət edirdi?**

- Yox, onda azərbaycanlılar var idi orda. Rus əsgərləri də nəzarət edirdilər o dövrdə milis idarələrinin, digər dövlət əhəmiyyətli yerlərin qorunmasına. Amma döyüb-incitməkləri var idi. Ruslarsa nəzarət edirdilər, qoymurdular, ən azı öldürməyə qoymurdular. Zaman keçdikcə bu məsələlər də öz məcrasından çıxdı.

Bu dövrdə Xocalı aeroportuna bir gündə 32 reys həyata keçirilirmiş... Xocalılılar fikirləşirlər ki, bunun qarşısını necə alsınlar. Aha?! Aeroportun partladılması bu səbəbdən baş verib. Nazim söyləyir ki, bu işdə birbaşa Füzulinin əməyi oldu. Xankəndinin yaxınlığında dəmiryol körpüsünün partladılmasında da Füzulinin xüsusi əməyi oldu (birdimi, beşdimi?!). Hətta erməniyə qarşı onsuz planlaşdırılan hər bir addımı, elə bil ki, yatıb yuxuda görürdü, özünü çatdırıb qabağa düşürdü, mütləq gəlib orda öz payını verməli idi (bu fikir, demək olar ki, Füzulinin bütün silahdaşlarının dilindən səslənib - N.Z. ). Elə bil qisməti beləydi vallah!..

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***

**Azərbaycanda dövlət xəstəxanalarında tibb fakültələrinin açılması bu sahədə bir yenilikdir. Dünyanın qabaqcıl ölkələrində mövcud olan bu istiqamətin Azərbaycanda da inkişaf etdirilməsi bir zərurətdir.**

# Azərbaycanın dövlət xəstəxanalarında tibb fakültələri - yeni strukturlar...

***Adil Qeybulla:** "Dövlət xəstəxanalarında tibb fakültələrinin təşkil edilməsinin əhəmiyyəti böyük olacaq"*



İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev bildirib ki, dövlət xəstəxanalarında yaradılacaq tibb fakültələrində məqsəd yeni dövrün tələblərinə uyğun kadrlar yetişdirməkdir. O, həmçinin, qeyd edib ki, burada əsas üstünlük regionlardakı dövlət xəstəxanalarına veriləcək: "Bəzi regionların dövlət xəstəxanalarında tibb fakültələrinin açılması üçün hökumətə müəyyən təkliflər hazırlamışıq".

Z.Əliyevin sözlərinə görə, hazırda bununla bağlı təhlillər aparılır: "Rezidenturanı bitirib bölgələrə təyinat alan həkimlərin regionlarda ən azı 3 il çalışması məsələsi ilə bağlı Səhiyyə Nazirliyi ilə danışıqlar aparılır. Regionlara həkimləri ezam etmək niyyətindəyik. Bununla regionlarda olan həkim çatışmazlığını qısa müddətdə aradan qaldırmaq istəyirik.

Xaricdə, xüsusilə Türkiyədə oxuyan tələbələri regionlara səfərbər etmək istəyirik. Hər il Türkiyədə tibb sahəsi üzrə təhsil alan bir çox tələbə məzun olur. Onlar məzun olduqdan sonra karyeralarını qurmağa can atırlar. Təəssüf ki, bu gün regionlarda həkim kadr ehtiyatı ilə bağlı müəyyən çətinliklər var. Amma yaxın gələcəkdə agentlik adından regionlar üzrə mərkəzi xəstəxanalarda çalışmaları üçün onlara həvəsləndirici, motivasiyaedici təkliflər irəli sürmək istəyirik. Bu istiqamətdə bir qrup tələbə ilə danışıqlar artıq aparılıb".

Z.Əliyev onu da əlavə edib ki, regionlarda həkim məntəqələrinin vəziyyəti ürəkaçan deyil:

"Biz bunu bilirik. Lakin bizim səlahiyyətimiz məhduddur. Son 10 ildə 600-dən çox xəstəxananın əsaslı təmiri və yenidən qurulması üçün yatırımlar olub. Bəzi xəstəxanalarda işlər qalıb. Onlar da tamamlanacaq. Yerlərdə həkim-kadr çatışmazlığı var, avadanlıqlar lazımi səviyyədə deyil. Həkimlərin bəziləri düzgün müayinə və müalicə aparmaqda çətinlik çəkirlər".

Tanınmış mütəxəssis, professor Adil Qeybulla bizimlə söhbətində bildirdi ki, dövlət xəstəxanalarında tibb fakültələrinin yaradılması yeni tələblərlə bağlıdır. Bunun üstün bir hal olduğunu deyən A.Qeybulla hesab edir ki, bu amil səhiyyə sahəsində tibbi xidmətin daha yüksək səviyyədə inkişafına müsbət təsir göstərəcək. "Hesab edirəm ki, dövlət xəstəxanalarında tibb fakültələrinin təşkil edilməsinin əhəmiyyəti böyük olacaq. Burada əsas məqsəd orta tibb işçilərinin hazırlanmasıdır. Dövlət xəstəxanalarının nəzdində açılacaq tibb fakültələrində orta tibb işçiləri daha yüksək səviyyədə hazırlanacaqlar. Onlar həm praktiki, həm də digər vərdişlərə yiyələnəcəklər. Heç kəsə sirr deyil ki, tibb kolleclərinin kadr hazırlığı səviyyəsi yetərli deyil. Yəni bir il yarım müddətinə orada tibb bacısı hazırlamaq olmur. Tibb Universitetində orta təhsilli tibb işçilərinin hazırlanması üçün həm xüsusi proqram olacaq, həm də onların vərdişlərə yiyələnməsinə görə şərait yaradılacaq. Bu fakültələrin açılmasının əhəmiyyəti var, biz bu sahədə daha savadlı kadrlar görə biləcəyik".

*"Tibb Universitetində orta təhsilli tibb işçilərinin hazırlanması üçün həm xüsusi proqram olacaq, həm də..."*

A.Qeybulla vurğuladı ki, dünyanın hər yerində sistem bu cür qurulub.

***İradə SARIYEVA***

# Vergi əməkdaşları Yasamalda Nizaməddinov Nizaminin aksizsiz araq və siqaretlərini ifşa etdilər

**Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsi tərəfindən keçirilmiş operativ vergi nəzarəti tədbiri zamanı Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 241E ünvanında yerləşən, fiziki şəxs Nizaməddinov Nizami Möhübbət oğluna məxsus mağazada aksiz markaları ilə markalanmamış 48 şüşə alkoqollu içki və 10.813 qutu tütün məmulatları aşkar olunaraq götürülüb.**

Nazirliyin Media və kommunikasiya idarəsindən "Bakı Xəbər"ə bildirildiyinə görə, faktla bağlı cinayət işi qaldırılıb, N.Nizaməddinov barəsində Yasamal Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Vergilər Nazirliyi bildirir ki, vergi orqanları belə halların qarşısının alınması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində tədbirləri davam etdirəcək. Vətəndaşlardan bu cür saxta malların satışı faktlarına rast gəldikdə dərhal əlaqədar dövlət orqanlarına müraciət etmələri xahiş olunur.

Aksiz markası ilə markalanmalı olan malların istehlakçıları bilməlidir ki, iqtisadi mahiyyətinə görə belə məhsullara aksizlərin tətbiqinin əsas məqsədlərindən biri də sağlamlığa zərərli məhsulların qanunsuz və keyfiyyətsiz istehsalının qarşısını almaq, istehsal mənşəyini müəyyən etməkdir.

Aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış məhsulları almaqla istehlakçı keyfiyyəti, istehsal və saxlanma şəraiti bəlli olmayan və sağlamlıq üçün zərərli məhsullarla üzləşmə təhlükəsi ilə qarşılaşır, eyni zamanda aksizsiz məhsulların qaçaqmalçılığının və istehlak bazarında saxta məhsulların satışının genişlənməsinə və dövlət büdcəsinin gəlirlərdən məhrum olmasına şərait yaradır.

№ 33 (4164) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

22-24 FEVRAL 2020-ci il

www.baki-xeber.com



# Rusiyanın ən zəngin qadınının 1.4 milyard dollar sərvəti var

**"Forbes" jurnalı Rusiyanın beynəlxalq onlayn-maqazini "Wildberries"in sahibi Tatyana Bakalçuku "Rusiyanın ən zəngin qadını" elan edib.**

"Qafqazinfo" xəbər verir ki, o, 1,4 milyard dollar sərvətlə bir il öncə siyahıda lider olan Yelena Baturinanı üstələyib. Moskvanın keçmiş meri Yuri Lujkovun xanımı olan Baturinanın sərvəti 1, 2 milyard dollar dəyərində qiymətləndirilir. Nəşr yazır ki, 2004-cü ildə həyat yoldaşı ilə biznes həyatına başlayan 44 yaşlı Bakalçuk son bir il ərzində 400 milyon dollar gəlir əldə edib.

## Mürəkkəb yaraları sağaltmaq üçün "ağıllı" sarğı hazırlanıb

**Konnektikut Universitetinin alimləri dərmanların birbaşa yaraya çatdırılması üçün simsiz işləyən "ağıllı" sarğı hazırlayıblar.**

Sarğı simsiz qoşulma üzrə idarə olunan miniatür iynələrlə təchiz edilib. Dərmanların dozasını tənzimləmək mümkündür. Bu texnologiya xroniki və pis sağalan yaraları olan minlərlə insanın həyatını asanlaşdırmağa kömək edəcək.

"İctnews.az" bildirir ki, miniatür iynələr minimal invazivliyə malikdir, buna görə dərmanın tətbiqi ağrıya səbəb olmur. Qurğu diabet xəstəliyi olan siçanlar üzərində sınaqdan keçirilib.

"Ağıllı" sarğı sayəsində siçanlarda yaraların tam sağalması müşahidə edilib. "Bu, mürəkkəb yaraların sağalması üçün "ağıllı" daşınan qurğuların hazırlanması istiqamətində vacib addımdır" - hazırlamanın müəllifi Ali Tamayol deyib. Bundan başqa, alim əlavə edib ki, sarğını tez-tez dəyişdirməyə ehtiyac yoxdur.

## Elan

1999-cu ildə Laçın şəhər 2 nömrəli məktəbi tərəfindən 1983-cü ildə anadan olan Hüseynova Səma İlham qızına verilən orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

---

Ağayeva Elmira Əbdül Bağı qızının adına, Bakı şəhəri, Nəsimi rayonu, R.Rza küçəsi, ev 92 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

---

Heydərova Fidan Vahid qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Taroyeva (Məmmədova) Firuzə Əkbər qızına məxsus, Sabunçu qəsəbəsi, Stasionnaya küçəsi ev 9, mənzil 12 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (seriya ÖM N054823) itdiyi üçün etibarsız sayılır.

---

Məcid Tahirə Bahadir qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Abdullayeva Sevda Məhəmməd qızının adına, Abşeron rayonu, Mehdiabad qəsəbəsi, Savalan küçəsində yerləşən ünvana verilmiş çıxarış (reyestr N308013088197) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

---

Cavadlı Elsevər Usubəli oğluna Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Saç rezini qadını milyonçu etdi

**"İnvisibobble" brendinin yaradıcısı bütün dünyada məşhur olan spiral yaylı saç rezinlərinin yaranması və onu milyonçu etməsi barədə sirrini bölüşüb.**

"Milli.Az" bildirir ki, bu barədə "Daily Mail" xəbər yayıb. İsveçrəli Sofi Trelles-Tvede bu rezinləri 18 yaşında olarkən universitetdə bayram tədbiri zamanı ixtira edib. Qaydalara görə, tədbirə geyimdən başqa heç nə götürmək olmazdı. Bu səbəbdən qız saçlarını yığmaq istəyəndə evdə istifadə olunmayan telefonun naqilindən istifadə edib. Növbəti gün yuxudan ayılanda qız başının ağrımadığını görüb. Halbuki, adi rezinlə saçlarını yığanda həmişə başı ağrıyırdı. O, bu barədə sevgilisinə deyir və cütlük spiral yaylı saç rezinlərinin dizaynına başlayır. Qeyd edək ki, həmin gənc hazırda Sofinin biznes müttəfiqidir. "Biz telefon naqilləri hazırlayan kişidən kömək istədik. "İnvisibobble" markasının ilk partiyası çox görkəmsiz alınmışdı və tanışlarım tərəfindən rişxəndlə qarşılanmışdı. Ancaq buna baxmayaraq, ruhdan düşmədik", - deyə Sofi bildirib. Bundan sonra rezinlər üç ədəd şəklində şəffaf qutuda qablaşdırıldı. Komplektlər beş funta (11 AZN) satılmağa başladı. Artıq Universiteti bitirdikdə Trelle-Tvedenin kompaniyasının dövriyyəsi beş milyon funt-sterlinq (11 milyon 142 min AZN) idi. Hazırda "İnvisibobble" markası təkcə yaylı rezinlər deyil, saç üçün digər aksesuarlar da istehsal edir və sahibinə ildə 16 milyon funt-sterlinqdən (35 milyon 654 min 400 AZN) çox gəlir gətirir. "Forbes" jurnalı Sofi Trelles-Tvedeni "30 yaşına çatmamış ən varlı avropalılar"ın reytinq siyahısına salıb.

## Dünyanın ən çirkli iri şəhərləri...

**"AirVisual" şirkəti dünyanın ən çirkli iri şəhərlərini açıqlayıb.**

"Qafqazinfo" xəbər verir ki, siyahıda ilk yeri Rusiyanın Krasnoyarsk şəhəri tutub. Orada havanın çirklənmə səviyyəsi 254 baldır. İkinci yerdə Hindistanın Mumbay şəhəri (185 bal), üçüncü yerdə isə Banqladeşin Dəkkə şəhəri (183) qərarlaşıb. Monqolustanın Ulan-Bator, Hindistanın Kəlküttə şəhərləri də ilk beşliyə daxil olub.







**Qoç** - Gün çoxsaylı əlaqələr, görüş, zənglər vəd edir. Bütün bunlar sizi yoraraq tənhalıq, sakitlik aramağa vadar edə bilər. Vacib saydığınız işlərlə məşğul olun, faydalı hesab etdiyiniz layihəni başa vurmağa çalışın.



**Buğa** - Çoxdan can atdığınız nəticənin konkret və hətta formal şəkildə əldə olunması üçün əlverişli gündür. Şəxsi həyatda münasibətlər bir qədər geriləcək, amma ciddi tələş üçün heç bir əsas yoxdur.



**Əkizlər** - İmkanlarınızdan xaricə çıxın, məqsədə çatın. Hüquqi məsələləri həll etmək, danışıqlar aparmaq, toplantı keçirmək olar. Maraq dairənizdə olan işləri axşam saatlarında da davam etdirə bilərsiniz.



**Xərçəng** - İş yerindəki fəaliyyətdə qayda yaradılması əhvalınıza müsbət təsir edə bilər. Şəxsi həyatda sizdən səmimilik tələb edəcəklər. Yaxın bildiyiniz insanı dinləyin, ona məsləhət verin, qayğısına qalın.



**Şir** - Bu gün aktiv olun, yaşamın tempindən geri qalmayın. Yeni işlərə başlayın, sizi maraqlandıran ideya və layihələri həyata keçirməyə çalışın. İşə laqeyd, səthi münasibət yolverilməzdir.



**Qız** - Yaradıcı yanaşmanın punktuallıq və səbrlə müşayiət olunması gərəkən işlərdə uğur əldə edə bilərsiniz. Çətin işi həll etməyə başlayın. Mürəkkəb, az adamın bacardığı işi görsəniz, səmərəsi də əhəmiyyətli olar.



**Tərəzi** - Ünsiyyət dairəsini məhdudlaşdırmayın, görüşə dəvətə mənfi cavab verməyin, danışıqlar aparın. İşi tərəfdaş və həmkarlarınızla birlikdə görün, axşam saatlarını da dostlarla keçirin.



**Əqrəb** - Bu gün yağlı yeməyin, bir qədər pəhriz saxlayın. Qız bürcü, Ay və Marsın münasibətləri sağlam həyat tərzi, fiziki iş, piyada gəzinti tələb edir. Xroniki xəstəlik özünü büruzə verərsə, mütləq həkimə müraciət edin.



**Oxatan** - Ailədə, evdə qayda yaratmaq üçün vaxt tapın. İndi istənilən sakit, rəvan, "təmizləyici" iş sizə daxili stabillik hissi ilə güc verə bilər. Hisslərinizdə batini sakitlik, qarşılıqlı anlaşma və stabilliyə can atın.



**Oğlaq** - Bu gün hər şey əvvəlki məcrada olacaq. Heç bir ciddi dəyişikliyə ehtiyac yoxdur. Sadəcə, işlərə önəmli təsir edən təfərrüatlar və nüansları nəzarətdə saxlayın. İnformasiya axtarışına daha çox diqqət və vaxt ayırın.



**Dolça** - Gün sakit başlayacaq. Tələsməyin, cari məsələlərlə təmkinlə məşğul olun. Fəaliyyətinizə əlavə edə biləcəyiniz məqamlar barədə düşünmək zamanıdır. Təkliflər, xəbər və xidmət mübadiləsi gələcəklə bağlı yeni perspektivlər yarada bilər.



**Balıqlar** - Bu gün evdə və işdə qayda yaradın. Çoxsaylı kiçik işlər həllini gözləyir. Gələn informasiyaları yerbəyer edin, ehtiyac yaranarsa, təmirə əl atın. Alış-verişdə çox pul xərcləməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Qərbi Afrikada ana ölümlərinin qarşısını almaq üçün ilk dron dəhlizi açıldı

**Ana ölümlərinin daha yüksək olduğu Qərbi Afrika respublikası Syerra-Leonedə bunun qarşısını almaq məqsədi ilə pilotsuz uçan aparat dəhlizi açılıb.**

"Ted.az" bildirir ki, bu tibbi xidmət dronları lazım olan səhiyyə tədarükünü ucqar ərazilərə vaxtında çatdırmaqla ölüm sayının əhəmiyyətli dərəcədə azalmasına kömək edə bilərlər.

Oksitosin ilə yüklənmiş dronlar təcrid olunmuş ərazilərə vaxtında çataraq anaların həyatını xilas etməkdə daha səmərəli hesab edilir. Onları 40 km məsafədən idarə etmək mümkündür.

Mütəxəssislər yaxın zamanlarda pilotsuz uçan aparatlar üçün daha çox dəhlizin açılacağını gözləyirlər. Qeyd edək ki, hökumətin 2017-ci ildə verdiyi hesabatda Syerra-Leonedə hər 100000 uşağa görə 1165 ana ölümü faktı qeydə alınıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.